AZƏRBAYJAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

SƏFƏR HÜSEYN OĞLU AŞUROV

# NAXÇIVANIN ILK TUNC DÖVRÜ KERAMIKASI

Bakı - 2002

*Elmi redaktor:*

tarix elmləri doktoru, professor **V.H.ƏLIYEV**

*Rəyçilər:*

tarix elmləri namizədi **T.R.ƏLIYEV**
tarix elmləri namizədi **N.Ə.MÜSEYIBOV**

**S.H.Aşurov.** Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı, «Nafta-Press», 2002, 158 s.

**A** $\frac{0504000000-1}{071(2002)}$ **Qrifli nəşr**

**© «Nafta-Press» nəşriyyatı, 2002**

# GİRİŞ

Azərbaycanın qədim arxeologiyasında və tarixşünaslığında bir sıra mühüm problem məsələlərin həlli üçün XX əsrin 40-cı illərindən tədqiq olunmağa başlanan İlk Tunc dövrü Kür-Araz mədəniyyəti abidələri əsas mənbələrdir. Yayılma arealı Şimali Qafqazdan Suriya və Fələstinədək geniş coğrafi ərazilərdə müəyyən edilmiş bu mədəniyyətin bir sıra yaşayış məskənləri və qəbir abidələrində geniş arxeoloji tədqiqat işləri aparılmışdır. Naxçıvan diyarı Kür-Araz mədəniyyətinin ilk yarandığı və yüksək səviyyədə təkamül tapdığı əsas mədəniyyət mərkəzlərindəndir. Zaqafqaziya ilə Yaxın Şərq ölkələri arasında iqtisadi, mədəni əlaqələrdə həlledici rol oynayan Naxçıvan regionu, xüsusilə onun Şərur diyarı Kür-Araz mədəniyyətinə aid arxeoloji abidələrlə çox zəngindir.

Tarix elmləri doktoru V.H.Əliyevin rəhbərliyi ilə Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun «Naxçıvan» arxeoloji ekspedisiyası tərəfindən Ovçular təpəsi, I və II Maxta, Ərəbyengicə, Aşağı Daşarx, Xələc, Sədərək və digər Kür-Araz mədəniyyəti yaşayış yerlərində müəllifin bilavasitə iştirakilə aparılmış yeni arxeoloji tədqiqatların nəticələri göstərir ki, Araz çayının sol sahilində qədim əkinçilik və maldarlıq mədəniyyətinin intensiv inkişafı üçün çox əlverişli bir tədii-coğrafi mövqedə yerləşən Şərur düzənliyi Azərbaycanda ilk tunc dövrü tayfalarının məskunlaşdığı əsas ərazilərdən olmuşdur. Naxçıvanın ilk tunc dövrü abidələri Kür-Araz mədəniyyəti problemlərinin həllində mühüm yer tutur.

Hələ 50-ci illərdə Naxçıvan şəhəri yaxınlığındakı I Kültəpədə O.H.Həbibullayev tərəfindən aparılmış arxeoloji qazıntılar Zaqafqaziya abidələrinin tarixi xronologiyasının müəyyənləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Artıq tədqiqatları sona çatdırılmış II Kültəpə yaşayış yerinin arxeoloji materialları isə həmdövr abidələrinin xronoloji ardıcıllıqlarının daha da dəqiqləşdirilməsinə imkan yaratmışdır. Bu abidənin arxeoloji tədqiqi və geniş şəkildə elmi təbliği t.e.d. V.H.Əliyevin adı ilə bağlıdır.

E.ə. IV-III minillikləri əhatə edən Kür-Araz mədəniyyəti tayfalarının tarixi bir sıra ictimai, iqtisadi və sosial dəyişikliklərlə zəngindir. Bu dövrdə maldarlıq və əkinçiliyin daha geniş inkişafı yeni-yeni ərazilərin mənimsənilməsinə səbəb olmuşdur. Təsərrüfatda maldarlığın – xüsusilə xırda buynuzlu qaramalın üstünlük təşkil

etməsi İlk Tunc dövrü tayfalarının iqtisadi və sosial həyatlarına olduqca güclü tə`sir etmişdir. Artıq məhsulun istehsalı tayfadaxili və tayfalararası əmlak bərabərsizliyinin yaranmasına, bu da öz növbəsində ictimai münasibətlərin köklü surətdə dəyişilməsinə təkan vermişdir. Bu dövrdə ana nəslindən ata nəslinə keçid birdəfəlik olaraq qət`i surətdə başa çatmışdır. Tayfalar daxilində kişilərin artan rolu ilə birgə onlara hörmət və inam hissi yüksəlmiş və xüsusi dini ayin və mərasimlərin meydana çıxmasına səbəb olmuşdur. Tədqiqatlar sübut edir ki, İlk Tunc dövründə yerli tayfaların dini-ideoloji dünyagörüşü yüksək səviyyədə olmuşdur.

Yeni-yeni otlaq sahələrinin axtarılması və istehsal olunan məhsul artığının mübadiləyə ehtiyacı Kür-Araz mədəniyyəti tayfalarının qonşu tayfalarla iqtisadi və mədəni əlaqələrinin genişlənməsinə səbəb olmuşdur. Maraqlıdır ki, Kür-Araz mədəniyyəti elementlərini güclü surətdə əks etdirən Suriya – Fələstin abidələrində dağıntı – təcavüz izləri hiss olunmur. Bu bir daha sübut edir ki, Kür-Araz mədəniyyəti tayfalarının qonşu tayfalarla əlaqələri dinc xarakter daşımışdır.

Əkinçiliyin və maldarlığı intensiv inkişafı müxtəlif sənət sahələrinin, xüsusilə dulusçuluq sənətinin inkişafına güclü təkan vermişdir. İqtisadi inkişafın tə`siri nəticəsində əhalinin sosial mədəni həyat tərzinin yüksəlməsi təsərrüfat və məişətdə lazım olan dulusçuluq mə`mulatının çeşidlərinin artmasına və keyfiyyətlərinin yüksəlməsinə səbəb olmuşdur. Bu isə hər şeydən əvvəl, bəşər tarixində ilk dəfədir ki, dulusçuluğun eneolit dövründəki kustar formasından fərqli olaraq bir sənət sahəsi kimi formalaşmasına gətirib çıxarmışdır. Qeyd etməliyik ki, dulusçuluq İlk Tunc dövrü sənətkarlıq sahələri arasında xüsusi yer tutur.

Naxçıvanın İlk Tunc dövrü abidələrindən əldə olunmuş keramika mə`mulatı Kür-Araz mədəniyyətinin səciyyəvi cəhətlərini müəyyənləşdirən əsas materiallar kimi, dövrün iqtisadi, ictimai, siyasi və mədəni problemlərinin öyrənilməsinə həlledici rol oynayır. İbtidai icma quruluşunun hər hansı bir tarixi mərhələsinin keramika mə`mulatı forma və hazırlanma texnologiyaoarına, çeşidlərinin müxtəlifliyinə görə İlk Tunc dövrü saxsı mə`mulatları ilə müqayisə edilə bilməz. Heç şübhəsiz özündən əvvəlki eneolit mədəniyyəti zəminində meydana çıxmış Kür-Araz mədəniyyətinin varislik əlaqələrini bilavasitə keramika mə`mulatı hesabına izləmək

mümkündür. Kür-Araz mədəniyyətinin nəinki müəyyən qrup abidələrində, həmçinin ayrılıqda götürülmüş hər bir abidəsində keramika mə`mulatının özünəməxsus spesifik xüsusiyyətləri müşahidə olunur. Bu oxşar və fərqli xüsusiyyətləri müqayisə etməklə abidələrin tarixi xronologiyasını, Kür-Araz mədəniyyətinin özünün inkişaf ardıcıllıqlarını, özündən əvvəlki və sonra gələn mədəniyyətlərlə əlaqəsini və dövrün mədəniyyət tarixi mənzərəsini bərpa etmək mümkündür. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin dulusçuluq mə`mulatı əsasında dəqiq müəyyənləşdirilmiş stratiqrafiyası nəinki Azərbaycan, eləcə də bütövlükdə Qafqaz, Qonşu Ön Asiya regionlarının İlk Tunc dövrü abidələri və mədəniyyətlərini xronoloji ardıcıllıqla öyrənmək üçün böyük elmi əhəmiyyət kəsb edir.

Hazırda Naxçıvan ərazisindəki İlk Tunc dövrü abidələrindən aşkar edilmiş zəngin keramika mə`mulatı Zaqafqaziyada, Şimali Qafqazda, Cənubi Azərbaycanda və Ön Asiyada – geniş bir arealda yayılmış Kür-Araz mədəniyyətinin tarixi problemlərini tədqiq etmək üçün əvəzedilməz mənbədir.

# I. İLK TUNC DÖVRÜ ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏ TARİXİ

Qədim dövrlərin istənilən mərhələsində əsas sənətkarlıq sahələrindən biri olan dulusçuluq sənəti müxtəlif problem məsələlərin araşdırılmasında xüsusi rol oynamışdır. Neolit dövrünün mühüm nailiyyətlərindən olan dulusçuluq ilk tunc dövründə özünün inkişafında yüksək mərhələyə çatmışdır. İlk dövrlərdə «toxuma və ya ağac qabları oda davamlı etmək üçün onların üzərinə gil yaxmaqdan başlanmış» bu sənət sahəsi tədqiq olunan dövrdə yeni keyfiyyətlər qazanmışdır. İlk tunc dövrünün dulusçuluq mə`mulatları forma və çeşidlərinin müxtəlifliyi ilə diqqəti cəlb edir. Lakin uzun müddət bu dövrün saxsı mə`mulatı tədqiqat obyektindən kənarda qalmışdır.

Zaqafqaziyada ilk tunc dövrü mədəniyyətinin xarakterik xüsusiyyətlərini özündə əks etdirən abidələrin arxeoloji cəhətdən tədqiqi tarixini üç mərhələyə ayırmaq olar:

1. XX əsrin 40-cı illərinədək olan dövr.
2. XX əsrin 40-cı illəri.
3. XX əsrin 50-ci illərindən başlayaraq müasir dövrədək olan mərhələ.

**Birinci mərhələdə** ilk tunc dövrünə aid abidələr ilkin eydə alınmış və müxtəlif arxeoloji materiallar toplanmışdır. Bütövlükdə Qafqazda bu dövrə aid materiallar ilk dəfə 1869-cu ildə Xaritonov tərəfindən Daşkəsən rayonunun Zağalı kəndi yaxınlığında aşkar edilmişdir (133, 91-92). 1904-cü ildə keçmiş Nuxa rayonunda (müasir Şəki rayonu) və Naxçıvan yaxınlığında həmin dövrə aid yeni abidələr qeydə alınmış və materiallar toplanmışdır (140, 37-47.).

Bu mərhələdə Azərbaycan ərazisindəki Govurqala və Şortəpədən (13, 249-263), Ermənistan ərazisində yerləşən Armavir-blur, Şenqavit, Mühənnət-təpə, Şreş-blur, Elardan, Gürcüstan ərazisindəki Trialeti, Didube və s. abidələrdən də öyrənilən dövr mədəniyyəti üçün xarakterik olan materiallar, xüsusilə çoxlu sayda keramika mə`mulatı əldə olunmuşdur (133, 73-127).

Lakin materiallar toplanmasına baxmayaraq onların dövrləri, yayılma arealı, tipləri və xarakterik xüsusiyyətləri haqqında dəqiq elmi fikirlər söylənilməmişdir. Toplanılmış materialların ilkin analizi və onların tarixi haqqında fikir söyləmək cəhdi E.A.Lalayana

mənsubdur. O, həmin materialları neolit dövrünə aid etmişdir (141, 36-58). Sonralar P.F.Petrov onun bu fikrilə razılaşmışdır (127, 10).

İlk tunc dövrü materiallarının tədqiq ilə məşğul olan E.A.Bayburtyan isə əvvəlcə həmin dövr abidələrini "Xaldi dövrünə" (33), sonra isə onları neolitdən tunca keçid mərhələsinə aid etmişdir (127, 10).

İlk tunc dövrü abidələrinin və onlardan toplanmış arxeoloji materialların tədqiqinin **ikinci mərhələsində** B.A.Kuftinin xidmətləri daha böyükdür. O, 30-cu illərin sonlarından başlayaraq ardıcıl olaraq həmin dövr materiallarını toplamış və ilk ümumiləşdirici nəticələri söyləməyə cəhd göstərmişdir. B.A.Kuftin ilk dəfə həmin mədəniyyətin xarakterik xüsusiyyətlərini, təxmini yayılma ərazisini müəyyənləşdirməyə çalışmış və tarixi haqqında fikir söyləmişdir (133, 124-127). Kür-Araz çayları arasında geniş yayılmış həmdövr abidələri "Kür-Araz eneoliti" mədəniyyəti məvhumu ilə birləşdirən B.A.Kuftin (133, 125) onu eramızdan əvvəl III minilliyin başlanğıcına aid etmişdir (135, 16-17).

Özünün dəyərli tədqiqatlarından sonra 40-cı illərin sonlarına yaxın B.B.Piotrovski «Kür-Araz eneoliti» abidələri haqqında mülahizə və fikirlərini bildirir (170, 171; 169, 32). O, bu dövr abidələrini e.ə. III minilliyin sonu – II minilliyin əvvəllərinə aid edir (169, 32).

50-ci illərdən başlanan **üçüncü mərhələdə** Zaqafqaziya «mis» dövrü (Kür-Apaz mədəniyyəti – S.A.) abidələri daha geniş tədqiq olunmuşdur. Azərbaycanda Baba-Dərviş, Mingəçevi, Gürcüstanda, Tetriçkaro, Amiranis-qora, Kvaçxelebi, Qudabertka, Xizanannt-qora, Kiketi, Ermənistanda Şenqavit, Elar, Qarni, Sevan, Kirovakan və s. qədim yaşayış məskənlərində geniş arxeoloji qazıntılar başlayır (208, 17). 1958-ci ildə S.A.Sardaryan Şenqavit qədim yaşayış yerində yeni arxeoloji qazıntılara başlayır və buradan müxtəlif materiallar toplayır (12, 327-332).

1960-62-ci illərdə E.A.Xanzadyan Elar nekropolunda və Kirovakan rayonunda yerləşən Kültəpə (Moxra-blur) abidəsində (191; 192), 1965-ci ildə isə Eçmiadzin rayonu ərazisindəki Metsamor qədim yaşayış yerinin ilk tunc dövrünə məxsus olan iki metrlik aşağı təbəqəsində qazıntı işləri aparır (197, 188).

Bu dövr Gürcüstan ərazisində aparılan tədqiqatlar da maraqlıdır. Bu mə`nada 1956-cı ildə Qori yaxınlığındakı Çixiaqora-

Qudabertka, Urbnisidəki Xizanaant-qora və Kvaçxelebi (204, 83-84) qədim yaşayış yerlərində aparılan arxeoloji tədqiqatları xüsusilə qeyd etmək lazımdır. 1958-ci ildə isə T.N.Çubinişvili tərəfindən Amiranis-qora qədim yaşayış yeri və nekroprolu tədqiq olunmağa başlanır (206, 69-73).

Maraqlıdır ki, bu dövrdə ilk dəfə olaraq Şimali-Şərqi Qafqazda Kür-Araz mədəniyyəti elementlərini özündə əks etdirən arxeoloji abidələr qeydə alınmış və tədqiqatlar aparılmışdır (153). Bu abidələrdən Vəlikənd, Mamaykutan yaşayış yerlərini, Qunib və Qinçi (39) qəbr abidələrini qeyd etmək olar.

Üçüncü mərhələdə Azərbaycan Respublikası ərazisinin ilk tunc dövrü abidələrinin arxeoloji tədqiqi daha məhsuldar olmuşdur. 1946-cı ildə S.M.Qazıyev tərəfindən Kür çayının sağ sahilində qeydə alınmış Mingəçevir qədim yaşayış yerindən ilk tunc dövrünə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir (31). Burada üzə çıxarılmış yaşayış binaları uzunsov yarıqazma şəklindədir. Onların divar və döşəməsi saman qatışıqlı palçıqla suvarmışdır (203, 33). Tikintidə bu formadan istifadə edilməsi Mingəçevir qədim yaşayış yerini Kür-Araz mədəniyyətinin digər abidələrindən fərqləndirir. Yaşayış yerinin bilavasitə yaxınlığında həmin dövrə məxsus torpaq qəbirlər müəyyənləşdirilmişdir (31, 26-27).

1958-63, 1966-cı illərdə Qazax rayonu ərazisində yerləşən Baba-Dərviş abidəsinin I və 2№-li təpələrində aparılmış qazıntılar zamanı öyrənilən dövr mədəniyyəti üçün xarakterik olan arxeoloji materiallar əldə edilmişdir (203, 35). Birinci təpədə 600m$^2$-dən artıq sahə öyrənilmişdir. Mə`lum olmuşdur ki, bir metrlik Kür-Araz mədəniyyəti təbəqəsindən aşağıdakı təbəqə daha qədim dövr mədəniyyətinə – eneolit mədəniyyətinə məxsus materiallarla zəngindir. Bu cəhətdən Baba-Dərviş I Kültəpədən sonra Azərbaycanda ikinci abidə olmuşdur (96, 5).

50-ci illərin sonu – 60-cı illərin əvvəllərində A.A.İessen tərəfindən Mil-Qarabağ düzündə Şahtəpə, Göytəpə, Çardaxlıtəpə, Qasımtəpə, Qaratəpə abidələri qeydə alınmışdır (203, 35). A.A.İessen eyni zamanda Mil düzündə tədqiq olunan Üçtəpə kurqanından Kür-Araz mədəniyyətinin son mərhələsinə aid materiallar əldə etmişdir (80).

Mil-Qarabağ düzü abidələrindən toplanmış arxeoloji materialların elmi analizi və onların tarixi xronologiyasının

müəyyənləşdirilməsi də A.A.İessenə məxsusdur. Və elə məhz bu tədqiqatlarından sonra o, belə bir nəticəyə gəlmişdir ki, «indi artıq Kür-Araz mədəniyyətini eneolit dövrünə aid etməyə heç bir əsas qalmamışdır.., bizim Kültəpə mədəniyyətini eneolit dövrünə aid etməyə tam əsasımız vardır. Kür-Araz mədəniyyəti isə mis-mışyak qarışığından, mis-mışyak tuncundan hazırlanmış alətlərlə, yüksək səviyyədə inkişaf etmiş metallurgiya ilə xarakterizə olunur» (80, 17). Maraqlıdırı ki, belə bir qənaətə eyni zamanda O.H.Həbibullayev də gəlmişdir (201, 5).

1960-80-ci illərdə Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi davam etdirilmiş və yeni abidələr qeydə alınmışdır. Onlardan Qəbələ (105, 25-52; 106, 146-159), Xaçbulaq (110, 14-15), Qobustan (155, 375) və s. göstərmək olar. 1964-cü ildə Quruçay və Köndələnçay vadisində 7 metrə yaxın ilk tunc dövrü mədəni təbəqəsinə malik olan Qaraköpəktəpə yaşayış yeri qeydə alınmış (91) və aparılan tədqiqatlar vadinin digər abidələrinin tarixi çərçivəsinin müəyyənləşdirilməsində həlledici rol oynamışdır (99, 18-21).

Bu mərhələdə Şimal-Şərqi Azərbaycanın İlk tunc dövrü abidələrinin arxeoloji tədqiqi daha intensiv davam etdirilmişdir. Qusar rayonunda Qəflə təpələri (189, 55-59), Gövdişantəpə (190, 76), Böyüktəpə (23, 95-99), Kuçumxantəpə (32, 78-82), Xaçmaz rayonunda Təpə yatağı (190, 117), Sərkərtəpə (188,s.492; 158, 257-259), Dəvəçi rayonunda I və II Çakkallıqtəpə (24, 79-83) yaşayış yerlərində aparılan tədqiqatların nəticələri Kür-Araz mədəniyyətinin Şimali Qafqaza keçid yollarını izləməyə imkan verir.

Hazırda Kür-Araz mədəniyyətinin aşkar olunmuş abidələrinin əksəriyyəti özlərinin elmi şərhini tapmışdır. Düzdür, onların bə`ziləri haqqında ayrıca monoqrafik əsərlər olmasa da, bir sıra əsərlərdə onların arxeoloji materiallarının geniş şərhini tapmaq mümkündür. Bu mə`nada T.N.Çubinişvili, K.X.Kuşnareva və R.M.Munçayevin xidmətləri daha böyükdür.

Azərbaycanın arxeoloji abidələrlə zəngin olan Naxçıvan Respublikası ərazisinin arxeoloji tədqiqi XIX əsrdən başlansada (139, 206-207; 180, 3-5) bu yalnız birtərəfli xarakter daşımış, «boyalı qablar mədəniyyəti» üçün xarakterik abidələr öyrənilmiş (59), digər arxeoloji dövrlərə aid abidələrin, o cümlədən ilk tunc dövrü abidələrinin öyrənilməsinə diqqət verilməmişdir. XX əsrin əvvəllərində E.A.Lalayan tərəfindən Naxçıvan ərazisində kəşfiyyat

xarakterli qazıntılar aparılmışdır. 1904-cü ildə o dörd yerdə – Kültəpə, Aşağı Uzunoba, Qızılvəng və Xram şəhərinin xarabalıqlarında qazıntılar aparmışdır (138, 47). Kültəpə qazıntıları zamanı aşağı laylardan qara cilalı, ondan üst təbəqədən isə qırmızı boyalı qab qalıqları aşkar edilmişdir (138, 48).

Lalayan Aşağı Uzunoba və Xəlili kəndləri arasında başqa bir abidənin yerləşdiyini qeyd edir. Formasına və təbəqələrinin quruluşuna görə o eyni ilə Kültəpəni təkrar edir və eyni ilə Kültəpə adlandırılır (138, 48). Bu kiçik miqyaslı qazıntıları nəzərə almasaq 20-ci illərədək Naxçıvan ərazisində yerləşən ilk tunc dövrü abidələrinin arxeoloji tədqiqatlardan kənarda qalmasını söyləmək olar.

1923-cü ildə «Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət» yaradılmış və bu cəmiyyət Naxçıvan ərazisində yerləşən arxeoloji abidələrdə geniş tədqiqat işləri aparmağa başlamışdır. Lakin ilk dövrlərdə bu cəmiyyətin əsas məqsədi Urartu hökmdarlarının Azərbaycana səfərlərinin yollarını izləmək üçün mixi yazıların Naxçıvan torpaqlarında olmasını müəyyən etmək olduğundan yenə də daha qədim dövrləri əhatə edən abidələrin tədqiqi qaranlıqda qalmışdır (148).

1936-cı ildə arxeoloq-etnoqraf Ə.K.Ələkbərovun rəhbərliyi ilə yaradılmış SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının ekspedisiyası ilk tunc dövrü abidələri haqqında qiymətli materiallar toplamışdır. 1934-cü ildə Şərurda (1990-cı ilədək İliç rayonu) İbadulla kəndi ərazisində su arxı qazılarkən əhali tərəfindən Şortəpə adlandırılan qədim yaşayış yeri dağıdılmış və müxtəlif dövrlərə məxsus olan külli miqdarda arxeoloji materiallar üzə çıxarılmışdır. Bu materiallarla yaxından tanış olan Ə.K.Ələkbərov 1936-cı ildə Şahtaxtı, Govurqala, Şortəpə və Oğlanqalada kəşfiyyat xarakterli arxeoloji qazıntılar aparmışdır (13, 249-262). Bu tədqiqatlar zamanı əldə olunmuş arxeoloji materiallardan yalnız kiçik bir qismi elmi tədqiqatlara cəlb olunmuş, böyük əksəriyyəti isə tam tədqiq olunmadan Azərbaycan Tarixi muzeyinin arxeoloji fondunda saxlanılır.

İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq Naxçıvan torpaqlarının arxeoloji cəhətdən öyrənilməsində on illik fasilədən sonra 1951-ci ildə Az.SSR EA Tarix İnstitutunun təşkil etdiyi arxeoloji ekspedisiya O.H.Həbibullayevin rəhbərliyi ilə I

Kültəpədə qazıntılara başladı. Həmin tədqiqat ilində Kültəpədə üç kəşfiyyat sahəsi salınmışdır. Birinci sahə (50 $m^2$) 1,25 m., ikinci sahə (21 $m^2$) 2,25 m., üçüncü sahə isə (22,75 $m^2$) 6 m. dərinliyədək qazılmışdır (200, 13). Buradan boyalı qab hissələri ilə yanaşı daha qədim dövrlərə aid maddi mədəniyyət nümunələri qalıqları əldə olunmuşdur (2, 36-45).

Qazıntılar 1953-cü ildə üçüncü sahədə davam etdirilərək genişləndirilmiş (39 $m^2$) və 10 m. dərinliyədək qazılmışdır (3, 36-45).

1955-ci ildə yaz və payız mövsümlərində üçüncü sahə daha da genişləndirilərək (65 $m^2$) əvvəlcə 16,75 m., sonra isə tən yarıya bölünərək 21,6 m. dərinliyədək qazılmışdır (200, 13). Buradan eneolit dövrünə aid materiallar əldə edilmişdir (200, 13).

1956-cı ildə təpənin qalan hissəsində qazıntılar başlanır və bu sahə şərti olaraq V №-li sahə adlandırılır. Aşağı hissələrdə qazıntı sahəsi 130-150 $m^2$ olmuşdur. 1959-cu ildə V №-li sahə genişləndirilərək 310 $m^2$-ə çatdırılmış və 19,5 m. dərinliyədək qazılmışdır. I Kültəpədə mədəni təbəqələrin ümumi qalınlığı 22,2 metrə çatır (1, 18).

I Kültəpədə arxeoloji qazıntılar 1964-cü ilədək davam etdirilmişdir (149, 15). Burada aparılmış qazıntıların nəticələri bir sıra elmi hesabatlarda, məqalələrdə və iki monoqrafiyada öz geniş əksini tapmışdır.

1960-cı ildə Araz arxeoloji ekspedisiyasının fəaliyyəti zamanı V.H.Əliyev tərəfindən digər bir abidə, II Kültəpə qeydə alınmış (54, 37-50; 55, 69) və 1962-ci ildə kəşfiyyat xarakterli ilkin qazıntılar aparılmışdır (1, 19). 1968-ci ildən isə bu abidədə geniş arxeoloji tədqiqatlar başlanmış (60, 3) və onlar 1987-ci ilədək davam etdirilmişdir.

1980-ci illərdə Azərbaycan Respublikası EA Tarix İnstitutunun «Naxçıvan» arxeoloji ekspedisiyası tərəfindən müəllifin iştirakı ilə Şərur və Sədərək rayonları ərazisində Ovçular təpəsi, Xələc, Ərəbyengicə, I və II Maxta, Aşağı Daşarx, Sədərək qədim yaşayış yerləri qeydə alınmışdır.

1988-89-cu illərdə I Maxta yaşayış yerində qazıntı işləri aparılmışdır. İlkin tədqiqatlar 10x10 m. ölçülü sahədə aparılmış və 4,60 m dərinliyədək davam etdirilmişdir. Bundan sonra yeraltı suların üzə çıxmasını nəzərə alaraq qazıntılar dayandırılmışdır. Qazıntı zamanı, üzəri müxtəlif üsullarla naxışlanmış saxsı mə`mulatı,

daş əmək alətləri, gil fiqurlar, daş bütlər, ocaq qurğuları və s. əldə edilmişdir Qazıntılarda müəllif bilavasitə iştirak etmişdir (76; 77).

Naxçıvanın bilavasitə ilk tunc dövrü keramikasının tədqiqi probleminə gəldikdə isə onun ilkin təhlili və şərhi B.A.Kuftinin adı ilə bağlıdır. O, 1944-cü ildə çap etdirdiyi «Urartskiy «kolumbariy» u podoşvı Ararata i Kuro-Arakskiy gneolit» adlı məqaləsində vaxtilə E.A.Lalayan tərəfindən Naxçıvan ərazisindən əldə edilmiş və Gürcüstan muzeyində saxlanılan materialların geniş şərhini vermiş, onların xarakterik xüsusiyyətlərini, dövrlərini müəyyənləşdirməyə cəhd etmişdir (133, 96-97). Məqalədə o, əsasən I Kültəpə və Şortəpə materiallarından bəhs edir və onların qonşu Zaqafqaziya materialları ilə oxşar və fərqli cəhətlərini aydınlaşdırır.

I Kültəpədə geniş arxeoloji tədqiqatlar başlandıqdan sonra O.H.Həbibullayev bu abidənin tikinti qalıqları, müxtəlif əmək alətləri, keramika mə`mulatları barədə məqalələrlə çıxış edir (2; 3; 6; 7). 1959-cu ildə çapdan çıxmış «Kültəpədə arxeoloji tədqiqatlar» əsərində isə I Kültəpə qazıntılarına yekun vurur və onun Zaqafqaziya abidələri arasında rolunu müəyyənləşdirir (200).

Ölümündən sonra çap olunmuş «Gneolit i bronza na territori Nax.ASSR» əsərində isə bütövlükdə Naxçıvan ərazisində qeydə alınmış eneolit və tunc dövrləri materiallarını təhlil etmiş, arxeoloji mədəniyyətlərin əlaqəsini bərpa etməyə cəhd etmişdir (1).

Naxçıvanın ilk tunc dövrü abidələrinin O.H.Həbibullayevdən sonrakı tədqiqi V.H.Əliyevin adı ilə bağlıdır. II Kültəpədə tədqiqatları zamanı o özünün çoxsaylı elmi məqalələrində bu abidənin müxtəlif tarixi dövrlərə aid materialları barədə fikirlərini bildirmiş və tunc dövrünün müxtəlif problemlərinin və xüsusilə Orta tunc dövrü «Boyalı qablar mədəniyyəti», onun ilk tunc dövrü ilə əlaqəsi və ilk tunc dövrü Kür-Araz mədəniyyətinin mənşəyi problemlərinin həllinə çalışmışdır (58; 59; 60).

Naxçıvanın ilk tunc dövrü abidələrindən əldə olunmuş tunc mə`mulatının elmi dövriyəyə daxil edilməsi V.Baxşəliyevin problemə həsr edilmiş tədqiqatları ilə bağlıdır. Burada o ilk tunc dövrü sənətkarlıq sahələri arasında xüsusi yer tutan metallurgiya və metalişləmə sənətindən bəhs edir və bu zaman istifadə edilən saxsı qabların təsnifatını verir (35[a]).

Müxtəlif illərdə A.Q.Seyidov Naxçıvanın Kür-Araz mədəniyyəti abidələri haqqında, onların arxeoloji materialları barədə məqalələrlə çıxış etmişdir (177, 95-96; 178, 77).

Bunlarla yanaşı müxtəlif dövrlərdə Kür-Araz mədəniyyəti problemlərinə müraciət edən tədqiqatçılar ilk növbədə Naxçıvan materialları barədə bəhs etmişlər. 1958-ci ildə Barney bu materialları özünün əsərinə daxil etmiş və I Kültəpə qədim yaşayış yerinin dəqiq tarixi çərçivəsini müəyyənləşdirməyə çalışmışdır (214).

Sonralar K.X.Kuşnareva, T.N.Çubinişvili, R.M.Munçayev özlərinin monoqrafik əsərlərini işləyərkən yenidən Naxçıvan materiallarına müraciət etmişlər (127; 208).

Lakin, qeyd etməliyik ki, ayrılıqda Naxçıvanın Kür-Araz mədəniyyəti keramikasına həsr edilmiş monoqrafik əsər işlənilməmişdir. Bunun da ilk səbəbi odur ki, Naxçıvanın bu dövr abidələrinin həqiqi və daha geniş mə`nada tədqiqinə olduqca gec başlanılmış, hətta elə abidələr vardır ki, onlar yenicə qeydə alınmışdır.

Naxçıvanın ilk tunc dövrü abidələri əkinçilik təsərrüfatı üçün əlverişli münbit torpaqlar olan dağətəyi və düzən zonalarda, çay vadilərində yerləşirlər (I tablo). İndiyədək qeydə alınmış abidələrdən I və II Kültəpə, I Maxta yaşayış yerlərində geniş qazıntı işləri, Govurqala, Ovçular təpəsi, Xələc, Sədərək, II Maxta, Aşağı Daşarx, Şortəpə, Ərəbyengicə abidələrində isə ilkin tədqiqat işləri görülmüşdür.

**I KÜLTƏPƏ** çoxtəbəqəli qədim yaşayış yeri Naxçıvan şəhərinin 8 km. şimal-şərqində, Naxçıvan çayının sol sahilində, müasir Kültəpə kəndi ərazisində yerləşir. Heç də təsadüfi deyildir ki, ilk tunc dövrünün əksər abidələri Kültəpə və ya sadəcə olaraq təpə adlandırılır. Yaşayış yerinin cənub-qərbindən keçən Naxçıvan çayı bu ərazidən hələ qədim dövrlərdən əkinçilik üçün istifadə olunmasına əlverişli şərait yaratmışdır. Güclü dağıntıya mə`ruz qalmış yaşayış yerinin salamat qalan hissəsinin uzunluğu 150, eni isə 100 m. olub, sahəsi 1,5 hektara yaxındır (59, 16). Uzunmüddətli arxeoloji qazıntılar nəticəsində I Kültəpədə eneolit, tunc və ilk dəmir dövrlərinə aid 22 metr qalınlığında 4 mədəni təbəqə olduğu müəyyənləşdirilmişdir (59, 16).

İlk tunc dövrü III və əsasən V qazıntı sahəsində öyrənilmişdir (127, 85). Təpənin zirvəsindən 3,5-4,5 metr dərinlikdən başlayaraq

12,4-12,5 metr dərinliyə qədər davam edən ilk tunc dövrünə aid ikinci mədəni təbəqə 8,5-9,5 metrə yaxın qalınlığa malikdir (1, 80). Eneolit və ilk tunc dövrü təbəqələrini bir-birindən ayıran və içərisində heç bir arxeoloji material olmayan 30-40 sm. qalınlığında lal təbəqəyə təsadüf edilmişdir (200, 23). K.X.Kuşnareva və T.N.Çubinişvilinin fikrincə lal təbəqəyə kiçik bir sahədə (75 $m^2$) təsadüf edildiyindən onu bütün abidəyə aid etmək olmaz (127, 85). Bu fikirlə razılaşmaq olar. Çünki yaşayış yerində həyat tərzi müxtəlif dövrlərdə təpənin bu və ya digər sahələrində davam etmişdir.

Qazıntılar nəticəsində I Kültəpənin ilk tunc dövrü təbəqəsində 14 tikinti qatı müəyyənləşdirilmişdir. Bu təbəqədə 40 dairəvi və az miqdarda dördkünc plana malik yaşayış və təsərrüfat binaları aşkar olunmuşdur (1, 81). Bə`zən dördkünc evlər dairəvi otaqlara yapışıq halda aşkar edilmişdir. Dairəvi otaqların diametrləri 5-13 metrə çatır (200, 33). Tikinti zamanı çaydaşlarından, palçıq və kərpicdən istifadə olunmuşdur. Kərpiclər müxtəlif ölçüdədirlər. Uzunluqları 40-42 sm, bə`zi hallarda isə 44-50 sm, enləri 18-22 və 24 sm., qalınlıqları isə 10-12 sm-ə çatır (1, 81). Hər bir evin tikintisində ancaq bir ölçülü kərpiclərdən istifadə olunub (1, 81).

I Kültəpənin ilk tunc dövrü təbəqəsində eneolit dövrü təbəqəsindən fərqli olaraq dəfn abidələri izlənilməmişdir. Çox güman ki, artıq bu dövrdə dəfn yaşayış yerindən kənarda aparılmışdır.

**II KÜLTƏPƏ.** Naxçıvan şəhərinin 12 km, şimalında, Yuxarı Uzunoba və Didivar kəndləri yaxınlığında, Cəhriçayın Naxçıvan çaya töküldüyü yerdə, I Kültəpə abidəsindən 4-5 km şimalda yerləşir. Abidənin cənub-qərb tərəfindən keçən Cəhriçayı yaz selləri zamanı təpənin bir hissəsini yuyaraq hündürlüyü 7-11 metr olan yarğan əmələ gətirmişdir. Yarğanın kənarında mədəni təbəqələr aydın izlənilir.

1962-ci ildə kəşfiyyat xarakterli qazıntılar aparılaraq abidənin salamat qalmış hissəsinin 3 ha. yaxın olduğu müəyyənləşdirilmiş və 3 mədəni təbəqə aşkar edilmişdir. Ümumiyyətlə isə yaşayış yeri şimal-cənub istiqamətdə 500, şərq-qərb istiqamətdə isə 200-250 m uzanaraq 10 hektara yaxın bir sahəni tutmuşdur (60, 5).

Aşağıdan birinci təbəqədən ilk tunc dövrünə və ya Kür-Araz mədəniyyətinə, ikinci təbəqədən orta və son tunc dövrünə, üçüncü təbəqədən isə ilk dəmir dövrünə məxsus maddi-mədəniyyət

nümunələri əldə edilmişdir. I təbəqə 6-7 m., II təbəqə 4-4,5 m., III təbəqə isə 0,5-1 m. qalınlığındadır (60, 5).

1972-ci il qazıntıları zamanı birinci qazıntı sahəsində II Kültəpənin ilk tunc dövrünə aid mədəni təbəqəsinin üst layları geniş tədqiq olunmuşdur.

1973-cü ildə salınmış yeni qazıntı sahəsində qazıntılar 1974-cü ildə davam etdirilmiş və orta tunc dövrünə aid 4-4,5 m. qalınlığında mədəni təbəqə öyrənilmişdir. İkinci qazıntı sahəsində qazıntının ümumi dərinliyi 5,5 m-ə çatdırıldıqdan sonra ilk tunc dövrü təbəqəsi üzə çıxarılmışdır. Cənub qazıntı sahəsində olduğu kimi, burada da orta tunc dövrü təbəqəsindən altda ilk tunc dövrü təbəqəsi yerləşdiyi müəyyən olundu (65, 4).

1978-ci ildən başlayaraq 1986-cı ilədək II Kültəpənin üzərində salınmış birinci qazıntı sahəsində ilk tunc dövrü təbəqəsi öyrənilmişdir.

1980-ci ildə 7-8. dərinlikdə 4-cü tikinti qatı təmizləndikdə bünövrələri 8 m. dərinlikdə yerləşən dörd bina qalığı aşkar edilmişdir. 1 №-li bina qalığı 4 d və 4 e kvadratlarının sərhəddində yerləşir. Onun divarlarının bünövrəsi çay daşları və gil məhlulu ilə qurulmuş, üst hissəsi isə çiy kərpiclə hörülmüşdür. Cənub divarın uzunluğu 1,5 m., qərb divarın uzunluğu 1 m.-dir. Divarların en və hündürlükləri 50 sm-dir. Bu bina qalığından bir qədər şimalda dördkünc plana malik möhrə qurğu qalığı açılıb. Qurğunun divarının qalınlığı 10 sm-dir. Divarları 40 sm. hündürlüyündə salamat qalmışdır. Ölçüləri 1x1 m.-dir. İçərisi kül və kömürlə doldururlmuşdur. Bu qurğu çox güman ki, ocaq qalığıdır (70, 2).

1981-ci ildə 8-9 m. dərinlikdə yerləşən digər maraqlı tikinti qalığı təmizlənmişdir. Tikinti qalığı qazıntı sahəsinin mərkəzi hissəsində (3 d, e, və 4 d, e kvadratları) üzə çıxarılmışdır. Salamat qalmış divar şərq-qərb istiqamətində yerləşir. Bünövrə çay daşları və gil məhlulu ilə, üst hissəsi isə çiy kərpiclərlə hörülmüşdür. Onun uzunluğu 6,4 m, eni 1,6 m., hündürlüyü 50 sm-dir. Bu divara şimal-şərq tərəfdən bitişik olan möhrə səki yerləşir. Kvadrat formada olan səkinin ölçüləri 1,1x1,1x0,25 m-dir. Üzərində çoxlu kül qatı və iki ədəd gildən hazırlanmış öküz başı formalı ocaq qurğusu təmizlənmişdir. Ocaq qurğularının bir hissəsi qırılmışdır. Buradan bir ədəd silindrik formalı daş əşya da əldə edilib. Çox ehtimal ki, bu möhrə və ocaq qurğuları, eləcə də silindrik daş əşya mehraba,

ibadətgaha aiddir. Kvadrat möhrə qurğu ilə bir istiqamətdə divarın digər tərəfində dairəvi ocaq yeri vardır. Ocağın diametri 1 m., dərinliyi 20 sm-dir. Daxili kül və xırda kömür qırıntıları ilə dolu idi (71, 5).

Bütövlükdə II Kültəpədə İlk tunc dövrünə aid 12 mədəni təbəqə təmizlənmişdir.

II Kültəpənin ilk tunc dövrü təbəqəsindən I Kültəpədə olduğu kimi dairəvi və dördkünc planlı evlər təmizlənmişdir. Bu tikinti qatında gildən hazırlanmış müxtəlif formalı qablar, ocaq qurğuları, mehrab qalıqları və s. təmizlənmişdir. I Kültəpədə olduğu kimi burada da qəbr abidəsinə təsadüf edilməmişdir.

II Kültəpədə aparılmış tədqiqatlar zamanı ilk tunc dövrü üçün bir sıra maraqlı cəhətlər üzə çıxarılmışdır. Bunlar aşağıdakılardan ibarətdir:

Birincisi, II Kültəpənin aşağı təbəqələrindən bir neçə qab qalıqları aşkar edilmişdir ki, onların gillərinin tərkibində eneolit dövrü üçün xarakterik olan saman qatışığı vardır.

İkincisi, bu abidədə üzəri müxtəlif rənglərlə boyanmış qabların hissələrinə tez-tez rast gəlinir.

Üçüncüsü, ilk tunc dövrü təbəqəsinin üst laylarından tapılmış qablar orta tunc dövrü qabları ilə yaxınlıq təşkil edirlər.

Bu yuxırda söylənilənər Kür-Araz mədəniyyətinin müxtəlif dövrlərinin maraqlı problem məsələlərini işıqlandırmağa imkan verəcəkdir.

**I MAXTA.** İlk tunc dövrü yaşayış yeri Şərur rayonunda, eyni adlı kəndin qərb qurtaracağında, Araz çayının 2 km-də, yer səthindən 1,5-2 m. hündürlükdə olan sün`i təpə üzərində yerləşir. Yaşayış yerinin qərb hissəsi əsrin əvvəllərində Yerevan-Naxçıvan dəmir yolunun çəkilişi ilə əlaqədar dağıdılmış, cənub, şərq və şimal tərəfləri isə üzüm bağına və əkin sahələrinə çevrilmişdir. Hazırda abidənin 50 m diametrə malik mərkəz hissəsi dairəvi şəkildə salamat qalmışdır. Yaşayış yeri bütövlükdə 3 ha yaxın sahəni əhatə edir.

Abidədə ilk tədqiqatlar 1988-ci ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. Qazıntı üçün abidənin şimal-qərbində 10x10 m ölçülü sahə götürülmüş və 5x5 m. ölçülü kvadratlara bölünmüşdür.

Həmin il qazıntılar abidənin səthindən – yə`ni «0» nöqtəsindən başlayaraq 2,30 m-dək davam etdirildi. Yaşayış yerinin üst təbəqələri

müsəlman qəbristanlığı salınması ilə əlaqədar dağıdılmışdır. Odur ki. müsəlman qəbirləri 25-30 sm. dərinlikdən üzə çıxarılmışdır. Müsəlman adətinə görə meyitlərin torpağın nisbətən dərin qatlarında dəfn olunmasını nəzərə alsaq demək olar ki, təpə əvvəllər daha hündür olmuşdur.

1989-cu ildə abidədə tədqiqatlar davam etdirilmiş və 4,60 m. dərinliyədək qazılmışdır. Lakin qrunt suları qazıntıların davam etdirilməsinə imkan verməmişdir. Maraqlıdır ki, 3,20-4,60 m. dərinlikdə bir neçə güclü yanğın izləri müşahidə olunmaqdadır. Birinci və həm də ən güclü yanğın 3,80-3,90 m. dərinlikdə izlənilir. Bütövlükdə yaşayış sahəsini 10 sm. qalınlığında kül təbəqəsi örtür.

Lakin, I Maxta yaşayış yerində mədəni təbəqələrin əlaqələri pozulmur. Buradan əldə edilmiş keramika mə`mulatı özünün çeşidlərinin müxtəlifliyi və forma rəngarənglikləri, naxışlanma üsulları ilə diqqəti cəlb edir.

**II MAXTA** yaşayış yeri Maxta və Kürdkənd kəndləri arasında, yuxarıda təsvir edilmiş eyni adlı digər abidədən 1,5 km. məsafədə yerləşir. Yaşayış yerinin cənub-qərbindən dəmir yolu xətti, şimalından isə Dəhnə çayı keçir. Yerli əhalinin verdiyi mə`lumata görə vaxtilə abidə hündür təpədən ibarət olmuşdur. Hazırda onun yerüstü təbəqəsi tamamilə dağıdılmış və əkin sahəsinə çevrilmişdir. Əkin sahələri suvarılarkən iri diametrli dairəvi oyuqlar əmələ gəlmişdir. Bunlar çox güman ki, ilk tunc dövrünün dairəvi mənzillərinin yerləridir.

Ümumi sahəsi 3 ha. yaxın olan yaşayış yerindən yerüstü materiallar toplanmışdır. Onlar daş əmək alətlərindən, ox uclarından və çoxsaylı keramika mə`mulatından ibarətdir. Keramika mə`mulatı forma və tiplərinə görə I Maxta materialları ilə eyniyyət təşkil edirlər. Yaşayış yerindən nisbətən sonrakı tarixi dövrlərə məxsus olan keramika mə`mulatı da əldə edilmişdir.

**ŞORTƏPƏ** ilk tunc dövrü yaşayış yeri Şərur rayonunun İbadulla kəndi ərazisində, şərqi Arpaçayın yaxınlığında, Araz çayının 2,5-3 km-də yerləşir. Yer səthindən 1,5-2 m. hündürlükdə yerləşən abidənin böyük bir hissəsi dağıdılmış, hazırda kiçik bir hissəsi salamat qalmışdır. 30-cu illərdə aparılmış kəşfiyyat xarakterli qazıntılar nəticəsində 30-40 dərinlikdə uşaq sümükləri, 80-90 sm. dərinlikdə yaşlı adama məxsus avadanlıqsız torpaq qəbir aşkara çıxarılmışdır. 1,5 m. dərinlikdə divarları çaydaşlarından hörülmüş

daş qutu qəbrə təsadüf olunmuşdur. Qəbirdən qara rəngli sadə qablar tapılmışdır. Bə`zi yerlərdə 3 m-dək tədqiq edilən Şortəpə abidəsində mədəni təbəqənin daha qalın olduğu ehtimal edilir (13, 254).

Şortəpənin birinci təbəqəsi ilk tunc dövrünə, ikinci təbəqəsi orta tunc dövrünə, üçüncü təbəqəsi isə son tunc, ilk dəmir dövrünə aid materiallar verir. Son illər abidəni 2 hissəyə bölən çay yatağı qazılarkən abidə yenidən dağıdılmış, toplanılmış maddi mədəniyyət nümunələrinin bir qismi Şərur Tarix-diyarşünaslıq muzeyinə təhvil verilmişdir.

**GOVURQALA** Naxçıvan və Şərur şəhərləri arasında yerləşən Şahtaxtı kəndinin yaxınlığındakı dağ yamacındadır. 1936-cı ildə A.K.Ələkbərov tərəfindən kəndin yaxınlığında yerləşən nekropolda tədqiqatlar aparılmış və bir neçə daş qutu qəbir açılmışdır. Onun verdiyi mə`lumata görə yaşayış yerindən müxtəlif dövrlərə, o cümlədən ilk tunc dövrünə məxsus materiallar əldə edilmişdir. İ.H.Nərimanov isə hətta 1968-ci ildə abidədən daha qədim dövrə – eneolit dövrünə aid materiallar əldə edilməsi barədə mə`lumat verir (167, 65). lakin hazırda abidənin tamamilə dağıdılması və üzərində daş karxanasının salınması yaşayış yerinin mədəni təbəqələrinin xarakteri barədə dəqiq fikir yürütməyə imkan vermir.

**ƏRƏBYENGİCƏ** yaşayış yeri eyni adlı kəndin cənub-qərb qurtaracağında, Şortəpə yaşayış yerindən 2,5-3 km. məsafədə yerləşir. Araz çayı abidənin 200 metrliyindən axır. Onun hər tərəfi dağıdılmış və böyük bir hissəsi əkin sahəsinə çevrilmişdir. Mərkəz hissəsi diametri 30 m. olan dairəvi formada salamat qalmışdır. Abidənin arxeoloji materialları müxtəlif daş alətlərdən, keramika mə`mulatından ibarətdir.

**XƏLƏC** Kür-Araz mədəniyyəti abidəsi eyni adlı kəndin cənub-qərbində yerləşən Yamaclar adlı dağın ətəklərində qeydə alınmışdır. Dağın ətəklərində müasir dövr qəbristanlığı salınması ilə əlaqədar mədəni təbəqələr dağıdılmışdır. Dağın qərbindən eneolit dövrü üçün xarakterik saman qatışıqlı gildən yoğrulmuş keramika mə`mulatı əldə edilir. Cənub tərəfdə isə orta tunc dövrünün boyalı qabları və hətta antik dövr küp qəbirləri dağıdılmışdır. Yaşayış yeri e.ə. V-I minillikləri əhatə edən möhtəşəm abidədir. Lakin dağın cənubundan Xələc mərmərinin çıxarılması ilə əlaqədar yaşayış yerinin bu sahəsi tamamilə dağılmışdır.

**OVÇULAR TƏPƏSİ.** Arpaçay vadisinin ən möhtəşəm abidələrindən hesab edilən Ovçular təpəsində ilk tədqiqatlar V.H.Əliyev tərəfindən aparılmışdır. Kəşfiyyat xarakterli qazıntı zamanı Kür-Araz mədəniyyətinə aid materiallar əldə edilmişdir. Abidə hündürlüyü 35-40 m. olan təpədən ibarətdir. Yaşayış yerinin qərbindən Arpaçayı şərqindən isə çayın vadisinə doğru uzanan avtomobil yolu keçir. Bir az aşağıda isə öz möhtəşəmliyi ilə bütün Zaqafqaziyada seçilən Oğlanqala abidəsi yerləşir.

**SƏDƏRƏK.** Bu yaşayış yeri Sədərək qəsəbəsinin cənubunda, Araz çayının sol sahilində yerləşir. Abidənin yerüstü hissəsi tamamilə dağıdılmış və üzüm sahələrinə çevrilmişdir. Buna görə yaşayış yerində qazıntılar aparmaq və mədəni təbəqələri öyrənmək mümkün deyildir. Lakin eneolit və ilk tunc dövrlərinə aid yerüstü materiallar müəyyən fikir söyləməyə imkan verir.

**AŞAĞI DAŞARX.** Yaşayış yeri Naxçıvan-Şərur avtomobil yolunun solunda, eyni adlı kəndin mərkəzində, Ələddin çayının sağ sahilində yerləşir. Ələddin çayı öz axınında bundan sonra Püsyan antik dövr yaşayış yerinin yaxınlığından keçərək Araz çayı ilə qovuşur. Yaşayış yerinin şərq, qərb və cənub tərəfləri ilbəil dağıdılmış və həyatyanı sahələrə qatılmışdır. Elə bu səbəbdən abidənin həmin hissələrində əmələ gəlmiş yarğanlarda mədəni təbəqələri aydın izləmək mümkündür. Abidənin mərkəz hissəsi dördbucaqlı prizma şəklində salamat qalmışdır. Onun üzərində nisbətən şimal tərəfdə 3 qəbir vardır. Bu qəbirlərin kimlərə məxsus olması müəyyən deyildir. Abidənin bu hissəsinin sahəsi 20-30 m-dir. Mədəni təbəqənin qalınlığı isə təkcə yarğan hissələrdə 8-9 m-ə çatır. Yaşayış yeri çox güman ki, olduqca böyük bir sahəni əhatə etmişdir. Çünki, onun cənubunda salınmış üzüm bağlarının içərisində də arxeoloji materiallara rast gəlinir. Abidənin materialları ilk tunc dövrünə aid müxtəlif keramika mə`mulatından, daş əmək alətlərindən və tunc bəzək nümunəsindən ibarətdir.

## II. SAXSI MƏ`MULATININ HAZIRLANMA TEXNOLOGİYASI

Naxçıvanın ilk tunc dövrü arxeoloji abidələrindən qazıntılar zamanı əldə olunmuş arxeoloji materiallar içərisində çoxluq təşkil edən müxtəlif çeşidli saxsı mə`mulatı dövrün tarixini, baş vermiş ictimai-siyasi dəyişiklikləri, təsərrüfat həyatını, dini-ideoloji baxışları, Kür-Araz mədəniyyətinin özündən əvvəlki və sonrakı mədəniyyətlərlə əlaqəsini və tayfaların yerdəyişməsini izləmək və bu barədə indiyədək söylənilmiş fikirləri daha da dəqiqləşdirmək imkanı verir. Azərbaycanda ilk tunc dövrü yaşayış yerlərində istehsal olunan saxsı qablar forma müxtəlifliyinə, çox çeşidliyinə, yüksək keyfiyyətdə hazırlanma və naxışlanma texnologiyalarına görə qədim dünyanın dulusçuluq sənəti tarixində yeni bir mərhələ təşkil edir.

Hələ eneolit dövrünün sonlarında (e.ə. V minilliyin sonu – IV minilliyin başlanğıcı) dulusçuluqda bir sıra yeni formalar kəşf edən qədim Azərbaycan dulusçuları e.ə. IV minillikdə bu mühüm sənət sahəsində əsaslı təbəddülat yaratmışlar. Tunc kimi mühüm bir metalın məhz bu dövrdə kəşfi, Azərbaycanda dulusçuluq sənətinin yeni istiqamətdə inkişafına təkan vermiş, Kür-Araz mədəniyyəti üçün səciyyəvi olan orijinal keramika mə`mulatları istehsalı meydana gəlmişdir.

Qədim dövrlərdə yüksək keyfiyyətli keramika mə`mulatının istehsalı üçün iki zəruri şərt mövcud olmuşdur:

1. Lazım olan keyfiyyətli gilin seçilməsi (xammalın əldə olunması prosesi).
2. Bişirilmə amili (175, 97).

Naxçıvanın ilk tunc dövrü keramikasının elmi müqayisəli şəkildə analizi sübut edir ki, yerli dulusçular bu şərtlərin hər ikisini yaxşı mənimsəyərək nəfis qablar hazırlaya bilmişlər.

İlk tunc dövrünün saxsı mə`mulatının tərkibində müxtəlif qatışıqlar – qum, parçalanmış daş və qismən saman vardır. Maraqlıdır ki, son vaxtlaradək bir sıra tədqiqatçılar güman edirlər ki, eneolit dövründən fərqli olaraq ilk tunc dövründə qabların gilinin tərkibində saman qatışığı yoxdur (165, 95). Lakin Naxçıvanın Ovçular təpəsi, II Kültəpə və Ərəbyengicə abidələrindən əldə edilmiş bir qism maddi mədəniyyət nümunələri sübut edir ki, ilk tunc dövrünün müəyyən mərhələsində qədim dulusçular saman qatışıqlı

gildən istifadə etmişlər. Daha doğrusu, Naxçıvanın eneolit dulusçuluğu üçün səciyyəvi olan bu cəhət, bir ən`ənə kimi ilk tunc dövrü dulusçuluq sənətində tətbiq edilmişdir.

Bu dövrün saxsı mə`mulatı boz, qonur, qara və qırmızı rəngli olub bə`zən parıldayanadək cilalanmışlar. B.A.Kuftin bu keramikanın Cənubi-Şərqi Avropanın «skifəqədərki qall-ştatt» keramikasına bənzədir (130, 13).

Bütövlükdə Zaqafqaziyanın Kür-Araz mədəniyyəti abidələrinin saxsı mə`mulatlarında oxşar cəhətlərin olmasına baxmayaraq müəyyən zonalarda lokal variantlara və hətta ayrı-ayrı abidələrdə özünəməxsus səciyyəvi xüsusiyyətlərə rast gəlinir.

İlk tunc dövründə istehsal olunmuş saxsı mə`mulatı tiplərinə, forma və rənglərinin müxtəlifliyinə görə diqqəti cəlb edir. Bu dövrün orta və son mərhələlərinin qablarının əksəriyyəti üçün parıldayanadək cilalanmış qara boya xarakterikdir. Bə`zilərində daxildən boz astarlı qat aydın seçilir.

Ümumiyyətlə tədqiq olunan dövr üçün qara və qırmızı cilalı qablar səciyyəvi sayılır (45, 5; 153, 79; 26, 23). Lakin buna baxmayaraq bir sıra abidələrdə bu ən`ənə pozulur. Misal üçün, Şimali Qafqazın Luqovoye abidəsini göstərə bilərik: «Luqovoye yaşayış yeri keramikasının əksəriyyəti üçün qabların daxili və xarici səthlərinin qırmızı-narıncı və qırmızı-sarı rəngdə olması xarakterikdir» (153, 101).

Q.S.İsmayılov Quruçay-Köndələnçay vadisində aşkar edilmiş ilk tunc dövrü abidələrində apardığı tədqiqatlardan sonra qeyd edir ki, «tunc dövrünün gil mə`mulatı üçün səciyyəvi sayılan qara cilalı, qırmızı astarlı qablara Uzuntəpə qədim yaşayış yerində də təsadüf edilməmişdir. Eyni vəziyyət Quruçay-Köndələnçay vadisindəki bir sıra abidələrdə də müşahidə olunmuşdur. Bu baxımdan, ilk tunc dövrünə məxsus zəngin dulus mə`mulatı üçün qara cilalı qabları səciyyəvi saymaq fikri yalnışdır» (93, 72). Əlbətdə biz artıq yuxarıda qeyd etdik ki, hər bir abidənin spesifik xüsusiyyəti müşahidə olunur. Lakin buna baxmayaraq bütün bu abidələri birləşdirən ümumi cəhətlər vardır ki, bunları inkar etmək olmaz. Qara cilalı çəhrayı astarlı qablar bütün ilk tunc dövrü abidələrinin saxsı mə`mulatı üçün səciyyəvi xüsusiyyətdir. Həm də qeyd etmək lazımdır ki, çəhrayı rəng bundan əvvəlki dövrdən mə`lum olsa da qara cila məhz ilk tunc dövründə meydana çıxmışdır.

B.A.Kuftin bu dövr üçün xarakterik olan və artıq yuxarıda qeyd etdiyimiz qara cilalı, çəhrayı astarlı qabların hazırlanması texnologiyasını aşağıdakı kimi təsvir edir: «… oksidləşdirici alovda bişmə nəticəsində qabların xarici səthi qaralır, daxili isə karbon birləşmələri tə`sir etmədiyindən açıq rəngli qalırdı. Beləliklə «çəhrayı astarlı» keramika alınırdı» (130, 13).

Qabların qara rəngdə olmasını tədqiqatçılar müxtəlif amillərin tə`siri ilə izah edirlər. F.Eqer, R.Virxov, S.P.Uvarova qabların qara rəngdə olmasını təsadüfi hal kimi qəbul edərək bişmənin zəif olması ilə əlaqələndirirlər (143, 252). Nioradze qabların qara rəngdə olmasını onların gillərinin tərkibindəki orqanik və qeyri-orqanik qatışıqlarla əlaqələndirir (143, 252). Z.P.Maysuradze qabların səthinin qara rəngdə olması faktını tədricən hisəvermə (143, 255), İ.H.Nərimanov isə onların gillərinin tərkibindəki dəmir duzunun artıqlıq təşkil etməsi ilə əlaqələndirirlər (161, 99).

R.B.Göyüşov dulusçuluq sənətində gil qabların anqoblanması üsulu haqqındakı tədqiqatlarından sonra bu fikirləri təkzib etmişdir. O, qeyd edir ki, qabların qara rəngdə olmasının iki səbəbi vardır. Birinci qrupa daxil olan qablar «tüstü ilə boğdurmaq» nəticəsində, ikinci qrup qablar isə qara rəngli anqob çəkilməsi üsulu ilə qaraldılmışlar (37, 102).

R.B.Göyüşovun fikirləri ilə razılaşaraq onu da əlavə etməliyik ki, ilk tunc dövründə üç qrup qara rəngli qablar istehsal olunmuşdur.

I qrup qablar – xüsusilə çölmək və qazanlar uzun müddət hisə vermə nəticəsində qara rəng almışdır. Uzun müddət keçməsinə baxmayaraq bu qabların üzərində his təbəqəsi indi də aydın seçilir və əllə toxunduqda aşınır.

II qrup qablar – küpə, kasa, dopu, qab altlıqları və s. tipli saxsı mə`mulatının üzərlərinə qara rəngli boyaq maddəsi çəkilmişdir və bu da boyanın tərkibindəki üzvi maddələrdən bilavasitə asılıdır.

III qrup saxsı mə`mulatının isə ümumiyyətlə gillərinin rəngi qaradır. Bu tiplərə Naxçıvanın e.ə. IV-I minilliklərə aid edilən abidələrinin saxsı mə`mulatı içərisində tez-tez rast gəlinir. II Kültəpə və I Maxta yaşayış yerinin saxsı mə`mulatının spektral analizləri sübut edir ki,* qabların bu rəngdə olması onların gillərindəki

---

* Анализлярин мцяллифи мярщум к.е.н. Щ.С.Теймуровдур. Спектограмма №1201.

qatışıqlardan bilavasitə asılıdır. Belə ki, aparılan analiz zamanı mə`lum olmuşdur ki, onların gilinin tərkibində dəmir və qurğuşun faiz nisbəti ilə artıqlıq təşkil edir və bişmə nəticəsində qablar qara rəng almışlar. Maraqlıdır ki, müasir dövrdə aparılmış etnoqrafik müşahidələr də bu fikri təsdiq edir. Hazırda Naxçıvan dulusçuları yüksək temperaturda bişmə zamanı qaralmasını nəzərə alaraq bə`zi yerli gil yataqlarından istifadə etmirlər.

Qara cilalı qablarla yanaşı boz, qonur, qırmızı cilalı qablar da istehsal olunmuşdur. Eneolit dövrünün sonlarında və ilk tunc dövrünün başlanğıcında boz rəngli, üzərləri zəif sığallanmış, bə`zən gillərinin tərkibində saman qatışıqları olan qablar üstünlük təşkil edirlər. Bu cür materiallara Ovçular təpəsi və II Kültəpə qədim yaşayış yerlərində rast gəlinir.

İlk tunc dövrünün son mərhələsinə doğru qırmızı cilalı qabların sayı artır. R.M.Munçayev haqlı qeyd edir ki, «Son eneolit dövründə (İlk tunc dövrünün sonları – S.A.) Zaqafqaziya və Şərqi Anadoluda qara cilalı qablar sıradan çıxmağa başlayır. Artıq Şenqavitdə və bir sıra Şərqi Anadolu abidələrində qırmızı cilalı, səthi cızma üsulu ilə həndəsi formada naxışlanmış qablar vardır. Kartli abidələrindən məhz bu cür keramika əldə olunur» (153, 84).

Boz və qırmızı rəngli qabların hissələrinə Fizuli rayonundakı Meynətəpə qədim yaşayış yerinin saxsı mə`mulatı içərisində də rast gəlinir. Lakin, Q.S.İsmayılov onları ilk tunc dövrünün qədim mərhələsinə aid edir (99, 20). Boya izlərinə Qazax rayonu ərazisindəki Baba-Dərviş abidəsinin materialları içərisində də təsadüf olunur (88, 55).

Naxçıvan abidələrinin saxsı mə`mulatı içərisində qırmızı rəngli boya ilə adətən kiçik həcmli küpə və kasalar boyanmışdır. Qeyd etmək lazımdır ki, qırmızı boyadan Naxçıvan dulusçuları hələ eneolit dövründən istifadə etməyə başlamışlar (1, 73). Lakin onlar ilk tunc dövrünün son mərhələsinədək faiz e`tibarı ilə azlıq təşkil etmişdir. V.H.Əliyev haqlı olaraq qeyd edir ki, «İkinci Kültəpə qazıntıları ilk dəfə elmi şəkildə sübut edir ki, Azərbaycanda bu növ bədii keramika-boyalı qab istehsalı e.ə. III minillikdə də olmuşdur (60. 14).

Beləliklə, Yaxın Şərqin bir çox ölkələrində olduğu kimi, Naxçıvanda da qədim mədəniyyətin bu sahəsi eneolit dövründən

başlayaraq eramızın ilk əsrlərinə qədər ardıcıl davam etmişdir» (57, 56).

İlk tunc dövrü keramikasının səciyyəvi xüsusiyyətlərindən biri də yarımşar formalı qulplara malik olmalarıdır. Bizcə, bu qulplar eneolit dövrü qabları üzərində rast gəlinən şiş yapmaların varisi olub onların üzərində üfüqi deşiyini açılması ilə meydana gəlmişdir. Bə`zi tədqiqatçılar yarımşar formalı qulpların eneolit keramikası ilə heç bir əlaqəsi olmadığını söyləmişlər (100, 16). Lakin eneolit dövrü şiş yapmalarını və ilk tunc dövrünün ilkin mərhələlərinin yarımşar formalı qulplarını müqayisə etməklə bu əlaqəni izləmək heç də çətin deyildir. Eneolit dövrünün şiş yapmalarının və həmçinin ilk tunc dövrü qulplarının davamlılığını tə`min etmək üçün onların əsaslarında və qabların üzərində yapışdırılmazdan əvvəl çərtmələr çəkilmişdir. Həm yapmalar və həm də yarımşar foriplv qulplar eyni bir funksiyanı yerinə yetirmişlər. İlk tunc dövrünün müxtəlif mərhələlərində formaca müxtəlif dəyişikliyə uğramalarına baxmayaraq bu qulplar özlərinin məzmun mənsubiyyətlərini qoruyub saxlamışlar. Onların ibtidai forması artıq yuxarıda qeyd etdiyimiz kimi, eneolit dövrünün şiş yapma çıxıntılarıdır.

Sonrakı mərhələdə qulpların əsası daha çox ovalvaridir. Naxçıvanın I və II Kültəpə (75, 12) abidələrindən əldə olunmuş və ilk tunc dövrünün ilkin mərhələlərinə aid edilən saxsı mə`mulatları üzərində rast gəlinən qulpların da əsasları ovalvaridir (II tab., 1, 2).

Üçüncü mərhələdə qulplar tam yarımşar formasını alırlar. Bu tip qulplara daha çox I Maxta yaşayış yerində, I və II Kültəpənin üst təbəqələrində rast gəlinir (II tab., 3; XVII tab., 3. 7). Maraqlıdır ki, bu qulplar formalarına görə iri buynuzlu qaramalın burnuna bənzəyir. Bu çox güman ki, ilk tunc dövründə qaramalın sayının artması və bnunla bağlı olaraq onlara inamın yüksəlməsi ilə əlaqədardır. Dövrün abidələrinin arxeoloji tədqiqi sübut edir ki, öküz inamı e.ə. IV-III minilliklərdə Azərbaycanda geniş yayılmışdır. Kür-Araz mədəniyyəti abidələrindən əldə edilmiş öküz fiqurları, buynuzvari çıxıntıları olan ocaq qurğuları, qabların üzərində rast gəlinən bə`zi təsvirlər bilavasitə öküz totemi ilə bağlı olmuşdur. Fikrimizcə yarımşar formalı qulpların meydana çıxması yuxarıda sadaladığımız faktlarla bilavasitə bağlı olmuşdur. Beləliklə, belə bir nəticəyə gəlmək mümkündür ki, yarımşar formalı qulpların da meydana gəlməsi maldarlığın inkişaf etməsi ilə bağlı olmuşdur.

Dördüncü mərhələdə yarımşar formalı qulplar tam rudiment (yə`ni deşiksiz) halını alırlar. Bu tip qulplara Kür-Araz mədəniyyətinin son mərhələlərini özündə əks etdirən abidələrdə rast gəlinir. Onlar Baba-Dərviş (96, 32), Şenqavit (133, 107), Qars, Zülfübulaq, Çaldıran düzü abidələrində (214, 171-186) təsadüf edilir.

I Maxta yaşayış yerinin yuxarıdan birinci və ikinci qarizontlarında bu cür rudimentar qulplar əksəriyyət təşkil edirlər (II tab., 5; IV tab., 3, 6, 9, 10). Bə`zən bu qulplar qabların üzərinə çəkilmiş basma və cızma naxışlarla müəyyən bir kompozisiyanı təşkil edirlər (XI tab. 6). İlk tunc dövrünün sonlarında qabların üzərində üçbucaq prizma şəkilli çıxıntılara və onların üzərində şaquli istiqamətdə açılmış deşikli qulplara rast gəlinir (IV tab., 4, 8). Maraqlıdır ki, bu tip qulplar öz əsalarını ilk tunc dövründən alsalar da daha çox son tunc, ilk dəmir dövrü abidərinin keramika mə`mulatında müşahidə olunurlar. Qeyd etmək lazımdır ki, bu cür qulplara tunc dövrünün bütün mərhələlərində ən çox kasa tipli qabların üzərində rast gəlinir. Çox güman ki, kasa tipli qabların nisbətən yüngül olduğunu nəzərə alaraq onların üzərində daha zərif qulplar düzəltmişlər. Bu tip qulplar Baba-Dərvişdən (96, 39), həmçinin son tunc dövrünün Şahtaxtı (56, 77), Qarabulaq nekropolu abidələrindən (76; 77) mə`lumdur.

Naxçıvanın ilk tunc dövrü yarımşar formalı qulplarının bə`zilərinin yuxarısında məməciklərə, dairəvi batıqlara və üçbucaq şəkilli oyma deşiklərə təsadüf edilir (II tab., 6, 7; III tab., 3, 5. 8;). Bu tip qulplar ilk tunc dövrünün bütün mərhələlərində rast gəlinsə də onlar azlıq təşkil edirlər. Bu tip qulplara cənubi Azərbaycan ərazisindəki Göytəpə abidəsinin arxeoloji materialları içərisində də rast gəlinir (212, 55).

İlk tunc dövründə saxsı qabların hazırlanma texnologiyası eneolit dövrü qablarının hazırlanma texnologiyasından o qədər də fərqlənmir. Bu dövrün qablarının böyük bir hissəsi dulus çarxından istifadə olunmadan hazırlanmışlar və bu xüsusiyyət Zaqafqaziyanın bütün Kür-Araz mədəniyyəti abidələri üçün səciyyəvi haldır (100, 13; 153, 75).

Lakin ilk tunc dövrü qabları əvvəlki mərhələnin qablarından daha çox simmetrikliyi ilə diqqəti cəlb edir. Bir sıra tədqiqatçılar bu dövr qablarının çarxda hazırlanmasına şübhə ilə yanaşır və bə`zən qətiyyətlə bu dövr qablarını hazırlamaq üçün ümumiyyətlə çarxdan istifadə edilmədiyini söyləyirlər (136, 132).

Tədqiq olunan dövrə aid dulus çarxı hələlik mə`lum deyildir. Naxçıvan abidələrindən mə`lum olan saxsı mə`mulatının tədqiqi sübut edir ki, ilk tunc dövrü dulusçuları saxsı qabları hazırlamaq üçün dörd üsuldan istifadə etmişlər.

Birinci üsulla haxırlanmış qablar əsasən kiçik həcmli olub kobuddurlar. Kiçik gil kütləsinin ortasında oyuq açmaqla hazırlanmış qabların heç birində simmetriklik gözlənilmir. Bu üsulla hazırlanmış qablar ilk tunc dövrünün əvvəllərində çoxluq təşkil edirlər və onlar eneolit dövrü qabları ilə daha çox yaxınlıq təşkil edirlər.

İkinci üsul sadə bad üsuludur. Bu üsulla orta və böyük həcmli qablar və təsərrüfat küpləri hazırlanmışlar. Bu cür qabları hazırlamaq üçün yaxşı yoğrulmuş gildən lentvari hissələr hazırlanıb səliqə ilə bir tərəfə düzülür. Bundan sonra onları dairəvi şəkildə bir-birinin üzərinə qoyaraq hər iki tərəfdən sığallayırlar. Lazım gəldikdə isə üzəri əlavə olaraq narın, yumşaq gil məhlulu ilə suvanır. E.K.Kverfeldt qabların bu üsulla hazırlanması prosesini aşağıdakı kimi təsvir edir: «Əllə qablar hazırlamaq üçün əvvəlcə səthinə qum səpilmiş lövhənin üzərində qabın oturacağı hazırlanır. Sonra onun kənarları yuxarıya qatlanır və hazırlanmış nazik badlar bir-birinin üstünə qoyularaq möhkəm sıxılr ki, badlar arasında su qalıqları və hava qalmasın» (109, s.13).

Maraqlıdır ki, qabların möhkəmliyini tə`min etmək üçün lentvari hissələrin bir tərəfində qabarıq, digər tərəfində isə basma nov düzəldilir və qab hazırlanarkən lentvari hissələr elə qoyulur ki, birinin qabarıq tərəfi digərinin batıq tərəfinə yerləşdirilir (parketlərin bir-birinə keçirilməsi üsulu ilə). II Kültəpə və I Maxta keramikasının tədqiqi sübut edir ki, bu abidələrdə dulusçular yuxarıda təsvir edilən üsuldan geniş istifadə etmişlər. Etnoqrafik müşahidələr göstərir ki, hazırda Naxçıvan Respubilkasının kəndlərində təndirlərin qurulmasında bu üsuldan istifadə olunur.

Üçüncü üsulla qablar çox güman ki, sadə dulus çarxından istifadə edilməklə hazırlanmışlar. II Kültəpə və I Maxta qabları içərisində bir neçə nümunə çox güman ki, bu üsulla hazırlanmışlar. Onların oturacaqlarında və divarlarında daxildən dulusçunun barmaqlarının yaş gil üzərində açdığı konsentrik cızma çevrələr qalır (VI tablo, II-14). Dulus çarxından istifadə edilmə izləri daha çox qabların boğaz hissəsinə daxildən çəkilmiş boyalarda müşahidə

olunur. Q.S.İsmayılov Kür-Araz mədəniyyətinin sonuncu mərhələsində dulus çarxından istifadə olunduğunu söyləyir (100, 27).

Artıq e.ə. IV minillikdə Yaxın Şərqdə dulus çarxının mə`lum olduğunu (175, 91) və Zaqafqaziyanın, xüsusilə Naxçıvanın qədim tayfalarının Şərq ölkələri ilə sıx əlaqələrini nəzərə alsaq bizim ehtimalımız şübhəli görünməz.

Dördüncü üsulla qabları hazırlamaq üçün kobud parçadan hazırlanmış torbadan istifadə edilmişdir. II Kültəpədən əldə olunmuş bir ədəd saxsı qab hissəsi daha çox maraq doğurur. Onun daxilində parçanın izləri aydın seçilir. Bu cür qabları hazırlamaq üçün hazırlanacaq qabın formasında torba düzəldilir və daxili qumla doldurulurdu. Sonra onun xarici səthi gillə suvanır və beləliklə qab alınırdı. Torbanın daxilindən qum boşaldıldıqdan və parça çıxarıldıqdan sonra daxildə kobud parçanın izləri qalırdı. Parça astarlı qab hissələri Kvatsxelebi, Xizanaant-qora, Didube, Luqovoye abidələrindən mə`lumdur (153, 1180).

R.M.Munçayev bu cür keramikaya Mərkəzi və Cənubi Zaqafqaziya, Şərqi Anadolunun ilk tunc dövrü abidələrində və həmçinin Qədim Şərqin ilkin sivilizasiya abidələrində rast gəlinmədiyini qeyd edir (153, 118-119). Qeyd etməliyik ki, bu üsulla hazırlanmış qabların hissələrinə Texut yaşayış yerinin eneolit dövrü materialları içərisində də rast gəlinir (186, 301).

Naxçıvan ərazisindən əldə edilmiş parça astarlı saxsı qabın gətirilmə ehtimalı mümkün deyildir. Çünki, onun gilinin tərkibi, forması və rəngi kompleksin digər materiallarından seçilmir. Ehtimal ki, tədqiq olunan dövrdə Naxçıvan dulusçuları az da olsa parça astarlı qablar istehsal etmişlər.

İlk tunc dövrü qablarının əksəriyyətinin üzərində daraqvari alətlə işlənmə izlərinə rast gəlinir (V tab. 6-9). İlkin mərhələnin qablarının üzərində müxtəlif istiqamətlərdə çəkilmiş xətlər çox güman ki, qabların birləşmə hissələrini hamarlamaq məqsədi daşımışdır. İkinci mərhələdə qabların üzəri nisbətən qalın dişli daraqvari alətlə işləndiyindən zəif nəzərə çarpır və cilalamaq məqsədi daşıyır.

Üçüncü mərhələdə isə qabların ağız səthinə və boğazına çəkilmiş daraqlar bəzək xarakteri daşıyır (I tab., 1, 2, 5). Daraqvari alətlə işləmə Azərbaycan ərazisində hələ eneolit dövründən mə`lumdur. I Kültəpə, Ovçular təpəsi, Sədərək eneolit dövrü

keramikası içərisində bu cür qab hissələrinə tez-tez rast gəlinir. Əlikömək yaşayış yerinin saxsı qablarının üzəri də dişli alətlə çəkilmiş xətlərlə örtülmüşdür (146, 15).

İlk tunc dövrü qablarının bişirilmə dərəcələri də müxtəlifdir. Saxsı mə`mulatının əksəriyyəti zəif bişirildiyindən en kəsiklərində qara zolaq aydın bilinir. Lakin bunlarla yanaşı keyfiyyətlə bişirilmiş qablara da rast gəlinir. Naxçıvanın ilk tunc dövrü abidələrində hələlik dulus kürələri aşkar edilməmişdir. II Kültəpənin aşağı təbəqələrindən birində bir yerdə dağılmış xüsusi qurğu təmizlənmişdir. Onun daxilindən müxtəlif çeşidli qabların qırıqları əldə olunmuşdur. I Maxta yaşayış yerindən isə bir ədəd körük ucluğu əldə edilmişdir. Qırmızı rəngli bu ucluq narın qum qatışıqlı gildən yoğrulmuş və qalın divarlı olmasına baxmayaraq yüksək keyfiyyətlə bişirilmişdir. Onun daxili silindrik formada boşdur. Üç tərəfə doğru divarları daralır (XXXIII tab., 15). Bu formalı körük ucluğu cənubi Azərbaycanın Göytəpə abidəsindən də məlumdur (212, 48).

Hələlik ən qədim dulus kürəsi Şimali Mesopotamiyada (İrak) I Yarımtəpədən aşkar olunub (175, 75). E.ə. III minilliyin sonlarına yaxın isə iki yaruslu kürələr qurulmağa başlanmışdır (175, 105).

O.H.Həbibullayev qabların bişirilmə dərəcəsi barədə yazır «… qara və qonur rəngli qabların daxilində qonur və qırmızı-çəhrayı astarları vardır. Görünür, əvvəllər xüsusi dulus kürələri olmamışdır və qablar kiçik xəndəklərdə, ocaqda və ya bu məqsədlərlə hazırlanmamış peçlərdə bişirilmişdir (3, 11). Bizcə qabların zəif bişirilməsini dulus kürələrinin olmaması ilə bağlamaq düzgün deyildir. Çox güman ki, bu qablar bişmə prosesinin sona çatdırılmaması səbəbindən zəif bişmişdir (109, 8).

Tədqiq olunan dövrə aid dulus kürəsi Vəlikənd yaşayış yerindən aşkar edilmişdir (153, 45). Maraqlıdır ki, kürə yaşayış yerinin daxilində deyil ondan nisbətən aralı qurulmuşdur (153, s.45).

Bizcə artıq ilk tunc dövrünün müəyyən mərhələsində bütün sənət sahələri, o cümlədən dulusçuluq sənəti ev sənətkarlığı formasını dəyişib xüsusi istehsal sahəsinə çevrilmiş və müəyyən qrup dulusçular nəsli meydana çıxmışdır. Abidələrin materiallarının təhlili sübut edir ki, bə`zi qablar eyni sənətkarın əməyinin məhsuludur. Deməli, hər bir yaşayış yerində dulusçuluqla xüsusi şəxslər məşğul olmuş və onlar bütün tayfa üzvlərinin saxsı qablara olan tələbatını ödəmişlər.

T.N.Çubinişvili və K.X.Kuşnareva isə daha irəli gedərək qeyd edirlər ki, «İlk tunc dövründə Zaqafqaziyada bu və ya digər region üçün xarakterik saxsı qablar hazırlayan xüsusi istehsal ocaqlarının mövcudluğu şübhə doğurmur» (127, 175).

Dulus kürəsinin yaranması isə «ilk əkinçilərin keramika istehsalı üzrə ixtisaslaşmasının dərinləşməsi, onun səviyyəsi və xarakterinin nəticəsi idi» (175, 91).

İlk tunc dövrü abidələrindən əldə olunmuş saxsı mə`mulatının inkişaf dinamikasını izləmək üçün özündə müəyyən xarakterik xüsusiyyətləri əks etdirən mərhələləri bir-birindən ayırmaq, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək zəruridir. Lakin indiyədək Naxçıvanın ilk tunc dövrü keramikasının mərhələlərə ayrılması məsələsi kölgədə qalmışdır.

Naxçıvanın ilk tunc dövrü abidələri ilə sıx əlaqəsi və yaxınlığı olan şərqi Anadolu abidələrindən mə`lum olan saxsı mə`mulatını inkişaf mərhələlərinə ayırmaq üçün Barney tərəfindən cəhd edilmişdir (214, 167-168). O keramikanın xarakterik xüsusiyyətlərindəki dəyişiklikləri nəzərə alaraq bu dövr keramikasının üç inkişaf mərhələsi keçdiyini söyləyir və hər bir mərhələnin saxsı mə`mulatının tam analizini və onlar arasındakı əlaqələri verməyə çalışır. Onun qeyd etdiyinə görə bu bölgü Urmiya gölü sahilindəki Göytəpə abidəsinin ilk tunc dövrü təbəqələrinin B.Braun tərəfindən aparılmış üç bölgüsü ilə eyniyyət təşkil edir (214, 167). Bizə elə gəlir ki, Barneyin Göytəpənin ilk tunc dövrü təbəqəsinin üç bölgüsü ilə bütövlükdə bu dövr keramikasının inkişafının üç mərhələsinin eyniyyət təşkil etməsi qənaətinə gəlməsi yalnışdır. Çünki, son illər Naxçıvanın ilk tunc dövrü keramikasının tədqiqi sübut edir ki, Göytəpədə ilk tunc dövrünün ilkin təşəkkül mərhələsi izlənilmir.

Bütövlükdə Zaqafqaziya və Yaxın Şərqdə yayılmış Kür-Araz mədəniyyəti keramikasının inkişaf mərhələlərini izləmək, onların xarakterik xüsusiyyətlərini müəyyənləşdirmək üçün Naxçıvanın I və II Kültəpə, I Maxta, Ovçular təpəsi və Aşağı Daşarx qədim yaşayış yerlərinin arxeoloji materiallarına müraciət edilməlidir. Çünki, bu abidələrdə tədqiq olunan dövrün bütün mərhələlərini özündə əks etdirən materiallara rast gəlinir.

Naxçıvanın ilk tunc dövrü keramikasını inkişaf xüsusiyyətlərinə görə üç mərhələyə ayırmaq olar:

I mərhələ: Eneolit mədəniyyətindən ilk tunc dövrünə keçid mərhələsi və ilk tunc dövrünün başlanğıc mərhələsi. Bu mərhələyə II Kültəpənin Kür-Araz mədəniyyətinə aid aşağı təbəqələri, Ovçular təpəsi, Xələc, Aşağı Daşarx abidələrinin materialları daxildir.

II mərhələ: İlk tunc dövrünün orta mərhələsi. Bu mərhələyə I Kültəpənin aşağı təbəqələrinin, II Kültəpənin orta təbəqələrinin, I Maxta yaşayış yerinin aşağı təbəqələrinin və Aşağı Daşarx abidəsinin materialları daxildir.

III mərhələ: İlk tunc dövrünün sonu və orta tunc dövrünə keçid mərhələsi. II Kültəpənin üst təbəqələri, I Maxta və Aşağı Daşarx abidələrinin üst təbəqələrinin saxsı mə`mulatı daxildir.

Bu mərhələlərin xarakterik xüsusiyyətləri və inkişaf problematikasından danışmazdan əvvəl Naxçıvan abidələri içərisində xüsusi əhəmiyyətə malik olan I Kültəpə abidəsinin keramika mə`mulatının tədqiqindən sonra O.H.Həbibullayevin gəldiyi nəticəyə nəzər salmaq düzgün olardı. İlk tədqiqatlardan sonra O.H.Həbibullayev I Kültəpənin mədəni təbəqələrini 4 stratiqrafik laya ayırır. Birinci təbəqəni e.ə. IV-III minilliyin əvvəllərinə aid edərək onun özünü $1^a$ və $1^b$ təbəqələrinə ayıraraq $1^a$ təbəqəsinin neolit dövrünün sonuna, $1^b$ təbəqəsinin isə eneolit dövrünün əvvəllərinə aid olduğunu söyləyir. İkinci təbəqəni isə eneolit dövrünün axırlarına aid edərək e.ə. III minilliyin ikinci yarısına aid olduğunu ehtimal edir (200, 24). Lakin sonralar o birinci təbəqənin $1^a$ və $1^b$ təbəqələrinə bölünməsinə ehtiyac olmaması qənaətinə gəlir və onu bütövlükdə eneolit dövrünə aid edir (1, 24).

Son illər Naxçıvanın həmdövr abidələrində aparılmış tədqiqatlar sübut edir ki, O.H.Həbibullayevin birinci bölgüsü daha düzgün olmuşdur. Çünki, əyər $1^a$ təbəqəsindən mə`lum olan saxsı mə`mulatının çeşidi azdırsa, artıq $1^b$ təbəqəsində inkişaf dinamikası izlənilir və bu mərhələdə küpə, çölmək tipli qablara, təkər modellərinə və saxsı qabların qalıqlarından hazırlanmış dairəvi əşyalara rast gəlinir (200, 58-63).

Bizcə, I Kültəpənin $1^a$ təbəqəsini neolit, $1^b$ təbəqəsini eneolit və ikinci təbəqəsini ilk tunc dövrünə aid etmək daha düzgündür. Son illər Naxçıvan arxeoloji ekspedisiyasının Damlama və Ovçular təpəsi abidələrində apardığı arxeoloji tədqiqat işləri və onların saxsı mə`mulatı bu fikri bir daha təsdiq edir.

## III. NAXIŞLANMA ÜSULU VƏ NAXIŞ MOTİVLƏRİ

Qədim arxeoloji mədəniyyətlərin xarakterik xüsusiyyətlərini, onların mənşəyini və əlaqəsini, bir mədəniyyətin digərini əvəz etməsini öyrənmək baxımındıdan gil qablar üzərindəki naxışlar əvəzsiz mənbədir. Naxışçılıq mədəniyyətinin tədqiqi vasitəsi ilə eyni zamanda Azərbaycan ərazisində yaşayan qədim tayfaların dini və ideoloji baxışlarını, adət və ən`ənələrini, məişət və təsərrüfatlarını və həmçinin sənət duyumlarını bərpa etmək mümkündür.

Azərbaycan ərazisində gil qabların naxışlanması eneolit (e.ə. V-IV minillik) dövründən başlansa da dulusçuluq sənətinin intensiv inkişafı nəticəsində ilk tunc dövründə daha geniş yayılmışdır. Naxçıvan Muxtar Respublikası ərazisində ilk tunc dövrünə aid naxışlanmış gil qablar I və II Kültəpə, I və II Maxta, Ovçular təpəsi və Ərəbyengicə qədim yaşayış yerlərindən əldə olunmuşdur.

Qeyd etmək lazımdır ki. ilk tunc dövründə gil qablar üzərində ilk naxışlanma sadə üsullarla aparılmışdır. Qabların üzərinin daraqvari alətlə işlənməsi bu qəbildəndir. Daraqvari alətin izlərinə ilk dəfə Naxçıvanın eneolit keramikası üzərində rast gəlinir. I Kültəpə, Ovçular təpəsi (22, 16), Xələc (21, 12) Sədərək yaşayış yerlərindən əldə olunmuş eneolit dövrü saxsı mə`mulatının əksəriyyətinin xarici və daxili səthi müxtəlif istiqamətlərdə daraqvari alətlə işlənmişdir. Bu texnika ilə naxışlanma ilk tunc dövründə davam edərək sonrakı inkişaf mərhələlərində nisbətən zərifləşir. Belə ki, ilk tunc dövrünün son mərhələlərində daraqvari alətin izlərinə qabların yalnız müəyyən hissələrində (ağız səthində, boğazının daxilində) rast gəlinir və nisbətən səliqəli çəkilmələri ilə əvvəlki dövr keramikasından fərqlənir. İlk tunc dövründə qabların üzərində aparılmış cilalama əməliyyatı eneolit dövrü qablarında aparılmış daraqlama əməliyyatının varisidir. Cilalama daraqvari alətlərin nisbətən təkmilləşmiş forması ilə aparılmışdır.

İlk tunc dövrü qabları yapma, basma, cızma və qismən çərtmə üsulu ilə naxışlanmış və bəzədilmişdir. Yapma naxışlar öz mənşəyini eneolit dövründən alsalarda ilk tunc dövründə geniş tətbiq edilmişlər. Artıq yuxarıda qeyd etdik ki, ilk tunc dövrü keramikasının səciyyəvi xüsusiyyətlərindən biri sayılan yarımşar formalı qulplar eneolit dövrü qabları üzərində rast gəlinən şiş yapmaların varisidirlər.

Maraqlıdır ki, ilk tunc dövrünün son mərhələlərində tez-tez rast gəlinən yalançı qulplar eyni zamanda naxış – bəzək rolunu oynamışdır. Maxta yaşayış yerinin keramika mə`mulatı içərisində bu tip qab hissələrinə tez-tez rast gəlinir. Bir ədəd kiçik həcmli küpənin üzərində basma üsulu ilə həndəsi naxışlar çəkilmişdir. Naxışların sonu spirallarla qurtarır. Onun üzərində bir-birinin əksində iki ədəd yalançı qulpu bu kompozisiyanı tamamlayır. Bütövlükdə bu naxış uçan quşu xatırladır (XI tab., 6).

Tədqiq olunan dövrün yapma bəzəklərinin bir sıra tiplərinə rast gəlinir. Onların daha çox yayılanı və ən sadəsi məməcik formalı yapmalardır (VII tab., 3, 4, 6, 10; VIII tab., 9). Məməciklər qabların üzərində müəyyən fasilələrlə, başqa bir halda isə qabın bütün ətrafına kəmər şəklində yapışdırılmışlar.

Bir qrup qabların ətrafını qabarıq kəmər haşiyələyir. Bə`zən həmin yapma zolaqların üzərində müəyyən fasilələrlə barmaqla basma nəticəsində və ya çərtmə nəticəsində batıqlar əmələ gətirilmişdir (VIII tab., 1-8). Maraqlıdır ki, bu tip bəzəklər daha çox iri həcmli küpələrin və təsərrüfat küplərinin üzərində yerləşdirilmişdir. II Kültəpə yaşayış yerindən rast gəlinən yapmaların bə`ziləri ilan, çoxluq təşkil edən başqa bir qismi isə qoç buynuzları formasındadır (IX tab., 2, 3, 6, 10; X tab., 1-10).

Ümumiyyətlə, Kür-Araz mədəniyyətinin ilkin mərhələlərini özündə əks etdirən abidələrin saxsı mə`mulatı üzərində yapma bəzəklər üstünlük təşkil edirlər. Bu şübhəsiz, eneolit dövrünün şiş yapma bəzəklərinin inkişafı ilə əlaqədardır. Kür-Araz mədəniyyətinin sonrakı mərhələlərində qabların bəzədilməsində yapma bəzəklərlə yanaşı müxtəlif naxışlama üsulları tətbiq edilmişdir (VIII tab., 9; IX tab., 2, 6). Bunu I və II Kültəpə materialları əsasında yə`qin etmək mümkündür.

Hələ vaxtilə O.H.Həbibullayev I Kültəpənin saxsı mə`mulatı üzərindəki naxışları digər abidələrin naxışları ilə müqayisə edərək qeyd edirdi ki, «öz xarakterinə görə Kültəpə qabları üzərindəki naxışlar Zaqafqaziyanın digər həmdövr abidələrinin qabları üzərindəki naxışlardan müəyyən qədər fərqlənir. Kültəpə qablarında yapma naxışlar üstünlük təşkil edirlər, nadir hallarda isə cızma naxışlara rast gəlinir. Digər həmdövr abidələr üçün isə cızma həndəsi və basma naxışlar daha çox xarakterikdir» (7, 164-165).

B.A.Kuftin vaxtilə Gürcüstan Dövlət muzeyində qorunan materialların içərisində iki ədəd naxışlı qabın olmasını təsvir edir və onların Naxçıvan Kültəpəsindən tapıldığını göstərir. Qabların üzərini bəzəmək üçün basma, oyma və kəsmə üsullarından istifadə edilmişdir. Basma üsulu ilə çəkilmiş naxışlar əyrixətli spiralşəkilli buruqlardan ibarətdir. Oyma naxışlar da spiralla qurtarır. Bu naxış qabın yalnız bir üzünü tutur. Kəsmə üsulu ilə lenta şəklində üfüqi çəkilmiş naxış qabın hər tərəfini əhatə edir (133, 97-98).

Lakin, O.H.Həbibullayev həmin qabların Kültəpədən tapılması ehtimalına şübhə ilə yanaşır (200, 77). Son illər I Kültəpə abidəsində olduğumuz zaman buradan üzəri naxışlı qabların hissələrinin əldə edilməsi bir daha sübut edir ki, I Kültəpənin də saxsı materiallarının bir qismi müxtəlif üsullarla naxışlanmışlar. Ümumiyyətlə isə I və II Kültəpənin aşağı laylarının çox zəngin keramika materialları üzərində naxışlara az təsadüf olunur. Bu abidələrdə naxışlı qablar saxsı mə`mulatının cəmi 10 faizini təşkil edirlər (100, 13). II Kültəpənin Kür-Araz mədəni təbəqəsinin üst laylarının saxsı mə`mulatı içərisində naxışlı qabların sayı artır (68, 16). Həm də bu mərhələdə basma naxışlarla yanaşı cızma naxışlara da təsadüf edilir. Bu naxışların sonrakı inkişafı isə Maxta abidələrində izlənilir (76, 10).

İlk tunc dövrünün müxtəlif mərhələlərinin saxsı mə`mulatı üzərindəki naxışların arasında müəyyən fərqlər olmasına görə naxışların inkişaf mərhələlərini bir-birindən ayırmaq üçün cəhdlər edilmişdir. Y.İ.Krupnov naxışların inkişafını iki mərhələyə ayıraraq yazırdı: «Nisbətən qədim layların keramika mə`mulatı relyef formalı dairəvi batıqlar, spiral və düz xətlərlə naxışlanmışdır. Daha sonrakı «eneolit» təbəqələrinin (İlk tunc dövrü – S.A.) keramika mə`mulatı cızma üsulu ilə həndəsi formada naxışlanmışdır (120, 28).

Ermənistan ərazisindəki ilk tunc dövrü abidələrindən mə`lum olan naxışlı gil qabların inkişafı üç mərhələyə ayrılır: «Birinci mərhələ üçün kobud qabarıq naxışlar xarakterikdir. Naxışların əsas formaları konsentrik dairələr, spirallar, müəyyən bitki təsvirlərindən, bə`zən isə onların birgə kompozisiyasından ibarətdir. Bu naxışlar qabların ancaq ön hissələrini əhatə edirlər. İkinci mərhələdə yuxarıda göstərilən formalara yeniləri (nazik xətlərlə cızılmış həndəsi formalı xətlər) əlavə olunur. Qeyd etmək lazımdır ki, bu naxışlar yalnız qabların boğaz hissələrini əhatə edir. Sonuncu mərhələdə bu tip

naxışların sadələşməsi müşahidə olunur. Onlar sadə cızma düz xətlərdən və baş barmaqla basma nəticəsində əmələ gəlmiş dairəvi batıqlardan ibarətdir» (108, 11).

Naxçıvanın ilk tunc dövrü abidələrinin maddi mədəniyyət nümunələri üzərindəki naxışların forma və məzmunca inkişaflarını dörd mərhələyə bölmək olar.

Birinci mərhələyə II Kültəpənin ilk tunc dövrü təbəqəsinin aşağı layları və Ovçular təpəsindən əldə edilmiş bə`zi keramika mə`mulatlarını aid etmək olar. Bu mərhələdə eneolit dövrünün naxışlama üsul və formaları qorunub saxlanılır. Bu ilkin mərhələ üçün şiş yapma bəzəklər və dairəvi batıqlar xarakterikdirlər. Bə`zən şiş yapmaların üzərində maili çərtmələr çəkilmişdir. Dairəvi batıqlar isə əsasən ovalvaridir. Maraqlıdır ki, K.X.Kuşnareva və T.N.Çubinişvili birinci mərhələnin gil qablarının əksəriyyətinin naxışsız olduğunu qeyd edərək yazırlar ki, «… yalnız Ermənistanın bu dövr abidələrinin keramika mə`mulatları naxışlanmışdır» (127, 150). Lakin aparılmış tədqiqatlar sübut edir ki, onların qeyd etdikləri naxışlı qablar heç də Kür-Araz mədəniyyətinin ilkin mərhələlərinə aid deyildir. Çünki sadədən mürəkkəbə doğru inkişaf edən naxışlar özlərinin ən ibtidai formalarını keçdikdən sonra müəyyən mükəmməl formalara çata bilərdilər.

İkinci mərhələdə relyef formalı basma naxışlar geniş yayılmışdır. Bu dövrdə həmçinin əsasən qabların yalnız boğaz hissələrinə çəkilmiş cızma naxışlar meydana çıxır. Bu mərhələyə I Kültəpənin aşağı təbəqələrinin və II Kültəpənin ilk tunc dövrü təbəqəsinin orta laylarının naxışlı keramikasını aid etmək olar. Vaxtilə relyef formalı naxışları Kür-Araz mədəniyyətinin başlanğıc mərhələsinə aid edən İ.İ.İessen abidələrin tarixlərinin dəqiqləşdirilməsində müəyyən təhriflərə yol vermişdir. O yazırdı ki, «… nə Kültəpədə nə də Göytəpədə bu mədəniyyətin bütün mərhələlərini özündə əks etdirən qalıqlar qorunmamışdır. Belə ki, nə Naxçıvanda nə də Urmiya rayonundakı Göytəpədə bizim fikrimizcə Kür-Araz mədəniyyətinin ilkin mərhələlərinə aid edilən relyef formalı və qabarıq yapma naxışlı gil qablara rast gəlinmir» (80, 16). Lakin II Kültəpədə aparılan tədqiqatlar sübut edir ki, relyef formalı naxışlar Kür-Araz mədəniyyəti keramikasının ilkin mərhələlərinə aid olmayıb yalnız onların inkişafının sonrakı mərhələlərinə aid edilə bilər.

Üçüncü mərhələyə II Kültəpənin üst laylarının və Maxta abidələrinin naxışlı saxsı mə`mulatını aid etmək olar. Bu mərhələdə ilk tunc dövrü qablarının naxışlanması mədəniyyəti yüksək inkişaf mərhələsinə çatır. Mərhələnin saxsı mə`mulatının 80 faizinin səthi naxışlıdır. Qabların səthi bu mərhələdə müxtəlif üsul və formada naxışlanmışdır. Belə ki, qabların bə`zilərinin boğaz hissəsi cızma, gövdəsi isə basma üsulu ilə naxışlanmışdır. Bu mərhələdə naxışlanmanın yeni üsulları – konnelyur və ştamp üsulu da tətbiq olunmağa başlayır. Əvvəlki mərhələdən fərqli olaraq bu mərhələdə artıq naxışlar qabların yalnız görünən ön tərəflərinə deyil bütün ətraflarına çəkilmişdir. Qabların bütün ətraflarının naxışlanması isə sonra gələn orta və son tunc dövrləri üçün daha çox xarakterikdir (XI tab; XIII tab., 1-15).

Nəhayət sonuncu, dördüncü mərhələdə naxışlar özlərinin əvvəlki nizamlarını itirirlər. Onların çəkilməsində əvvəllər müşahidə olunan səliqə itmişdir. Naxışların müəyyən ardıcıllıqları və forma qanunauyğunluqları pozulmuşdur (XI tab., I; XIII tab., II, 14). Lakin bunlara baxmayaraq naxışlar öz formalarını qoruyub saxlamışlar ki, bunlar da tunc dövrünün sonrakı mərhələlərində qismən tətbiq edilməklə davam edirlər. Naxçıvanın orta və son tunc dövrü abidələrindən əldə edilmiş keramika mə`mulatları içərisində ilk tunc dövrü naxışlarını forma və üsulca təkrar edən naxışlara tez-tez rast gəlinir. Bu hal təkcə Naxçıvan abidələri üçün xarakterik olmayıb, Azərbaycanın digər rayonları üçün də səciyyəvidir. Belə bir fikir Qusar rayonunun Böyüktəpə I ilk tunc dövrü abidəsindən əldə edilən kasa üzərindəki naxış əsasında da söylənilmişdir (23, 97). Faktik materiallar sübut edir ki, tunc dövrünün ilk mərhələləsində meydana çıxan naxışlama üsulları və motivləri sonrakı mərhələrdə də gil qabların səthinin naxışlanmasında tətbiq edilmişdir.

İlk tunc dövrü qabları üzərində ən çox rast gəlinən naxışlar spirallardır. Onları I və II Kültəpə, I Maxta, Aşağı Daşarx, Ərəbyengicə abidələrindən əldə olunmuş keramika mə`mulatı üzərində müşahidə etmək mümkündür (XI tab, 1, 7, 8, 13; XIII tab., 2, 7, 8). Bu tip naxışlar həmçinin Baba-Dərviş (96, tab. XXV, 1-8), Ozni (208, tab. XVII, 1), Amiranis-qora (208. Tab. XIX, 2), Karaz (216, 403), Göytəpə (212, RLIII, 45) və s. abidələrdən mə`lumdurlar. Məhz buna görədir ki, bir sıra əlamətlərlə yanaşı spiralvari naxışlar

da ilk tunc dövrünün xarakterik xüsusiyyətlərindən biri hesab edilir (44, 12; 88, 57).

Bizcə, ilk tunc dövründə qablar üzərində rast gəlinən hər bir işarə və naxış elementi həyati mə`na daşımışdır. Bu baxımdan spiralvari naxışların hansı mə`na daşıdığını araşdırmaq maraqlıdır. Bu haqda müxtəlif fikirlər və mülahizələr vardır. Bə`zi tədqiqatçılar spiralı ilanın simvolik işarəsi hesab edir. E.V.Xanzadyan bu haqda yazır: «Arevik keramikasının əsas naxış kompozisiyası cüt spirallardan və onların mərkəzində yerləşdirilmiş dairəvi batıqdan ibarətdir. Çox güman ki, dairəvi batıq ayın, kənarlardakı spirallar isə onu mühafizə edən ilanın simvolik işarəsidir» (196, s.169).

Başqa bir qrup tədqiqatçıların fikrincə spiralvari naxışlar günəş inamı ilə bağlıdır (100, 15; 51, 18).

K.X.Kuşnareva və T.N.Çubinişvilinin fikrincə «… məhsuldarlıq inamı ilə bağlı olan spiral əbədi hərəkət simvolu olan günəşi əks etdirir. Müxtəlif formada bir-birinə birləşdirilmiş qoşa spirallar isə həyat ağacının simvoludur» (127, 166). Lakin elə buradaca onlar başqa bir ideyanı irəli sürürlər: «İlkin mərhələlərin keramikasında spirallar adətən yapma vasitəsi ilə təsvir edilmişdir. Qoşa spirallar isə bir-birinə şaquli yapma xətlə birləşdirilmişdir ki, bu da buynuzlu heyvanın başının yuxarı hissəsini xatırladır» (127, 166).

Bizcə, spiralın hansı mə`na daşıdığını və hansı inamla bağlı olmasını söyləmək üçün onların sadədən mürəkkəbə doğru inkişaf dinamikasını izləmək daha məqsədəuyğundur. Naxçıvan abidələrində spiralların ən arxaik formasına eneolitdən ilk tunc dövrünə keçid mərhələsində rast gəlinir. Ovçular təpəsindən tapılmış boz rəngli saxsı parçasının üzərində bu naxışın ilkin formalarından birinə rast gəlinir. Eyni bir əsasdan başlanan iki yapma zolaq yuxarı qalxır və yanlara qatlanır. Bu forma qoç başını xatırladır (X tab., I). II Kültəpədən mə`lum olan bir neçə qab parçası üzərində bu forma təkrar olunur (IX tab., 3; X tab., 3, 6, 7). Yenə həmin abidədən mə`lum olan başqa bir fraqmentdə isə həmin forma təkrar olunmaqla yanaşı burada artıq qoç buynuzunda olduğu kimi konsentrik yivlər oyulmuşdur (X tab., 4, 7). Bu fakt bir daha onu sübut edir ki, spiralvari naxışlar buynuzlu heyvanın – qoçun simvolik işarəsidir.

Maraqlıdır ki, ilk tunc dövründə qoç simvoluna təkcə naxışlarda deyil, eyni zamanda gil və daş zoomorf fiqurlarda, ocaq qurğularında və s. maddi mədəniyyət nümunələrində rast gilinir. Bu

faktlar bir daha sübut edir ki, ilk tunc dövründə qoç inamı insanların ideoloji dünyagörüşündə xüsusi yer tutmuşdur. Bu şübhəsiz ilk tunc dövrünün təsərrüfat həyatı ilə sıx bağlı olmuşdur. Maldarlığın inkişafı insanların ideologiyasına da tə`sir etmiş və maldarlıqla yanaşı ona uyğun olan simvollar və inamlar, dini mərasimlər meydana çıxmışdır. Heç də təsadüfi deyildir ki, ilk tunc dövründə Azərbaycan ərazisində ev heyvanlarının qurban verilməsi faktı da mə`lumdur (99, 34).

Tədqiqatçıların bir qrupu haqlı olaraq qeyd edirlər ki, öküz, qoç Kür-Araz mədəniyyəti tayfalarının əsas inam totemləri olmuşdur (127, 111).

İlk tunc dövrünün son mərhələsində isə spiralvari naxışlar yeni həndəsi əlavələr qəbul etmiş və çox güman ki, həmin çağlarda onlar özlərinin ilkin mahiyyətini qismən itirmişlər. Maraqlıdır ki, ilk tunc dövrünün son mərhələsində basma üsulu ilə çəkilmiş spiralvari naxışlarla yanaşı cızma üsulu ilə də çəkilmiş spirallara və onların müxtəlif kompozisiyalarına rast gəlinir (XI tab., 4; 7; XIII tab., 6, 12). Bu tip naxış nümunələrinə Naxçıvan ərazisində daha çox I Maxta yaşayış yerinin saxsı mə`mulatı üzərində rast gəlinir. Onların daha yaxın analoqları isə Şenqavit (133, tab. XXIX, 4; XXX, 2, 3) və Şərqi Anadolunun Karaz (216, 403) abidəsindən mə`lumdur.

R.M.Munçayev qeyd edir ki, Zaqafqaziya və Dağıstanın ilk tunc dövrü keramikası üçün naxışların qabların yalnız bir tərəfində, ön tərəflərində cəmləşdirilməsi daha çox xarakterikdir. Halbuki, boyalı qablar üçün bunun əksi, yə`ni naxışların qabın bütün ətrafına çəkilməsi xarakterikdir (153, 100). Lakin Naxçıvanın ilk tunc dövrü keramikasının bir qismində bu mülahizənin əksi müşahidə olunur. Belə ki, ilk tunc dövrünün son mərhələlərində kiçik həcmli küpə və kasalarda bə`zən naxışlar müəyyən simmetrik ardıcıllıqla qabın bütün ətrafını əhatə edir və müəyyən bir naxış elementi bir neçə dəfə təkrar olunur (XI tab., 3, 6, 8-11). Bu ardıcıllıq və simmetriklik V.H.Əliyevin qeyd etdiyi kimi Naxçıvanın orta tunc dövrü boyalı qablarında da izlənilir (60, 21).

Spiralvari naxışların mənşəyi məsələsinə gəldikdə isə bir sıra tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, onlar yerli zəmin üzərində təşəkkül tapmışlar. Buna əmin olmaq üçün ilk tunc dövrü ilə həmdövr qonşu mədəniyyət abidələrinin saxsı mə`mulatları üzərindəki naxışları nəzərdən keçirmək lazımdır.

Kür-Araz mədəniyyəti tayfalarının şimal qonşuları Maykop mədəniyyəti tayfalarının maddi-mədəniyyət abidələri üçün spiralvari naxışlar yaddır. Əvəzində isə «Maykop mədəniyyəti keramikası əsasən mirvariyəbənzər yapma düyməciklərlə naxışlanmışdır» (153, 80).

E.İ.Krupnov və R.M.Munçayev haqlı olaraq qeyd edirlər ki, spiralvari naxış İran və Mesopotamiya incəsənəti üçün də xarakterik deyil (120, 39; 151, 11).

T.N.Çubinişvili Kür-Araz mədəniyyəti abidələrində rast gəlinən relyef formalı durna və spiralvari naxışlarla III Sialkın arxeolroji materiallarında rast gəlinən «uçan quşlar» və «həyat ağacı» təsviri arasında müəyyən oxşar cizgilərin olduğunu qeyd etsə də, elə oradaca belə nəticəyə gəlir ki, «Kür-Araz mədəniyyətinin ilkin mərhələsində rast gəlinən relyef formalı ornament öz əsasını özündən əvvəlki mərhələnin yapma bəzəklərindən almışdır və qədim əkinçi tayfaların məhsuldarlıq inamı ilə bağlıdır» (207, 11).

Əlbətdə, hər hansı bir naxış motivinə dünyanın müxtəlif mədəniyyət abidələrində və müxtəlif etnik qrupların incəsənətində rast gəlinə bilər. Spiralvari naxışlara gəldikdə isə onlar Zaqafqaziyanın ilk tunc dövrü abidələri üçün xarakterik olub, yerli eneolit mədəniyyəti zəminində təşəkkül tapmış və maraqlı inkişaf yolu keçmişdir.

Artıq yuxarıda qeyd edildiyi kimi, ilk tunc dövründə geniş yayılmış ikinci naxış növü cızma üsulu ilə çəkilmiş həndəsi naxışlardır. Bu naxışlar qablar bişirilməzdən əvvəl yaş gil üzərində də nazik və iti uclu alətlə çəkilmişlər. Lakin buna baxmayaraq bə`zən bişirilmiş qabların üzərində bu tip naxışlar çəkilmişdir. Cızma naxışlar adətən kiçik həcmli qabların – küpə, çölmək, kasa və s. tipli qabların boğaz hissələrinə çəkilmişlər. Naxışlar müxtəlif kompozisiyanı təşkil edirlər. Sadə düz xətlərlə yanaşı üçbucaq, düzbucaq və romblara rast gəlinir (XI tab., 4, 11, 12; XII tab., 6, 7, 8; XIII tab., 9, 10, 11, 14, 15). Bə`zən isə həndəsi formada çəkilmiş spirallara təsadüf edilir (XIII tab., 6, 12). I Maxta yaşayış yerindən mə`lum olan bir ədəd qara cilalı qab parçası üzərində paralel xətlər və bir-birinin daxilində üçbucaqlar çəkilmiş, onların daxili isə cızma xətlərlə doldurulmuşdur (XIII tab., 15). Başqa bir fraqmentdə isə paralel xətlərin arası nöqtələrlə örtülmüşdür (XI tab., 10).

Bu tip naxışlara Kür-Araz mədəniyyətinin Baba-Dərviş (88, s.58), Kosi-Koter (192, 153), Dvin (124[a], 7), Şenqavit (153, 81). Qinçi (38, 62), Trialeti (131, tab., CXX), Karaz (216, 406) və s. abidələrinin keramika mə`mulatı üzərində rast gəlinir.

Bə`zi qabların boğaz hissəsi cızma, gövdəsi isə basma üsulu ilə naxışlanmışdır (XI tab., 8-10). Bu tip naxışlara I Kültəpə və I Maxta keramika nümunələrində təsadüf olunur. Onların yaxın analoqları isə Şenqavit və Beştaşen qalasının arxeoloji materialları içərisində mə`lumdur (153, 81).

Mövcud arxeoloji fikrə görə xətlərin arasının nöqtələrlə doldurulması nəinki şumlanmış, həmçinin səpilmiş əkin sahələrini ifadə edir. Çünki toxa əkinçiliyindən xış əkinçiliyinə keçid ilk tunc dövrünün son mərhələsində başa çatmışdır. Belə bir inkişaf isə əmək məhsuldarlığını artırmış və əkinçiliklə bağlı olan yeni inamların meydana çıxmasına səbəb olmuşdur. Bu dövrdə hətta amulet kimi istifadə olunan gil əşyaların üzərində buğda şəklində naxışlara rast gəlinir (XXXVI tab., 2). Naxçıvanın orta və son tunc dövrü abidələrində aparılan arxeoloji qazıntılar sübut edir ki, ilk tunc dövründə meydana çıxan cızma naxışlar sonrakı mərhələlərdə daha da inkişaf edərək təkmilləşir (19, 26; 16, 118).

İlk tunc dövrünün son mərhələlərində gil qabların səthi ştamplama üsulu ilə naxışlanmışdır. Bu naxışlar dörd, beş və altı dişli alətlə yaş gil üzərində işlənmiş və qabların yalnız ön tərəflərini deyil, bütövlükdə ətrafını haşiyələyir. Bə`zən onlar qabların boğaz hissəsini əhatə edir. Başqa bir halda isə bucaq, qövs və s. formada qabın çiyin hissəsinə və gövdəsinə çəkilib.

Ştamplama üsulu ilə naxışlanmış qablara Üzərliktəpə yaşayış yerində çox rast gəlinir (126, 405). Bu üsulla naxışlama orta və son tunc dövrlərində geniş inkişaf etmişdir.

Naxçıvanın Kür-Araz mədəniyyəti keramikası içərisində boyalı qab nümunələrinə də rast gəlinir. Ümumiyyətlə, Azərbaycanda eneolit dövründən başlayaraq gil qabların üzərinə qırmızı boya çəkilməsi hallarına təsadüf edilir (157, 57). Həm də bir qrup gətirilmə boyalı qabları nəzərə almasaq qalanları həm gillərinin tərkibinə görə, həm də hazırlanma texnologiyalarına görə eneolit dövrünün digər qrup qablarından fərqlənmirlər.

Naxçıvanın ilk tunc dövrü abidələrindən əldə edilmiş boyalı qabları 3 qrupa ayırmaq olar:

Birinci qrupa xaricdən qırmızı və qəhvəyi rənglə örtülmüş və ilk tunc dövrünün qara cilalı qabları kimi cilalanmış qabları daxil etmək olar. Bu tip qablara II Kültəpə (74, 4) Ovçular təpəsi və I Maxta yaşayış yerlərində rast gəlinmişdir.

İkinci qrup qabların xarici səthi dövrün qara, boz, qonur cilalı qablarından fərqlənmir. Lakin onların boğaz hissələri daxildən 1-6 sm. enində qırmızı, qəhvəyi rəngə boyanmışlar (XIV tab., II; XXVIII tab., 21 24). Bu xüsusiyyət yalnız Naxçıvanfn Kür-Araz mədəniyyəti keramikası üçün xarakterikdir. Bu tip boyalı qablara I və II Maxta, I və II Kültəpə, Ərəbyengicə, Şortəpə, Ovçular təpəsi və s. ilk tunc dövrü abidələrinin materialları sırasında rast gəlinir. Qeyd etmək lazımdır ki, orta tunc dövrünün boyalı qablarının da bir qisminin boğazı eyni ilə bu cür rənglənmişdir.

Üçüncü qrup qabların səthi qırmızı rəngə boyanmış üzərində isə fırça ilə qara və qəhvəyi rəngdə düz, dalğavari bucaqşəkilli ornamentlər çəkilmişdir (XIII tab., 16-17). Bu tip qablar yalnız rənglərinə görə həmin dövrün digər qablarından fərqlənirlər. Forma və hazırlanma texnologiyasına görə isə onlarla tam eyniyyət təşkil edirlər. Naxçıvanın II Kültəpə və I Maxta abidələrindən bu cür boyalı qablara rast gəlinir. Onların analogiyası isə Beştaşen qalası, Kvaçxelebi (153, 84), Qinçi (38, 62) və s. abidələrdən mə`lumdur.

Bir sıra tədqiqatçılar orta tunc dövrünün boyalı qablarının yerli zəmin əsasında təşəkkül tapdığına şübhə ilə yanaşırlar (28, 45, 48). Digər bir qrup tədqiqatçı isə qətiyyətlə onların gətirilmə olduğunu iddia edirlər. Lakin, V.H.Əliyevin II Kültəpə tədqiqatları sübut edir ki, orta tunc dövrünün boyalı qabları yerli zəmin üzərində təşəkkül tapmışdır. Belə ki, II Kültəpənin orta tunc dövrünün aşağı təbəqələrinin monoxrom boyalı keramikası ilk tunc dövrünə aid üst təbəqələrin boyalı qabları ilə tam eyniyyət təşkil edirlər (19, 28).

Eneolit dövründən hazırlanmağa başlanan boyalı qablar ilk tunc və orta tunc dövrlərində daha da təkmilləşmişlər. Lakin onların ümumi oxşarlıqları qorunub saxlanılmışdır. Bu oxşarlıq təkcə onların rənglərində deyil həmçinin üzərlərinə çəkilmiş naxışların formalarında da hiss olunur. Digər tərəfdən Naxçıvanın ilk tunc dövrü keramikası üçün xarakterik olan qabların boğazlarının daxildən müxtəlif rənglərlə boyanması əlaməti orta tunc dövründə davam etdirilir.

Ümumiyyətlə, ilk tunc dövrünün son mərhələsində gil mə`mulatının naxışlanmasında tətbiq olunan bir sıra üsullar (cızma, yapma, çərtmə və s.) orta tunc dövründə təkmilləşərək geniş inkişaf etmişdir (60, 14).

İlk tunc dövrü qablarının üzərində basma, çərtmə, cızma üsulları ilə çəkilmiş naxış motivlərinin bir qrupuna orta tunc dövrü qabları üzərində də rast gəlinir. Lakin fərq ondadır ki, bu naxışlar artıq müxtəlif rəngli boyalarla icra olunur.

Son illərin tədqiqatları sübut edir ki, Naxçıvanın ilk və orta tunc dövrləri mədəniyyətləri arasındakı əlaqə qırılmır. Orta tunc dövrü boyalı qablar mədəniyyəti isə yerli Kür-Araz mədəniyyətinin təbii inkişafının nəticəsi idi.

Orta tunc dövründə keramika istehsalında meydana çıxmış yeni elementlər isə etnik proseslərin əlaməti olmayıb yerli tayfaların iqtisadi-ictimai və mədəni inkişaf səviyyələri ilə bilavasitə bağlıdır.

# IV. İLK TUNC DÖVRÜ SAXSI MƏ`MULATININ TƏSNİFATI VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

Zaqafqaziyanın ilk tunc dövrü keramikasını tiplərinə görə qruplara ayırmaq üçün müxtəlif tədqiqatçılar tərəfindən cəhdlər edilmişdir. Naxçıvan abidələrinin saxsı mə`mulatının tiplərə bölünməsi cəhdi isə O.H.Həbibullayevə məxsusdur. O, ilk dəfə olaraq I Kültəpədən əldə olunmuş saxsı qabları «I. yemək hazırlamaq üçün və 2. başqa məişət məqsədləri üçün, yə`ni yemək hazırlamaq və təsərrüfat ehtiyaclarını ödəmək üçün istifadə olunmuş qablara» (200, 63) ayırır. Lakin bu bölgünün yalnız I Kültəpə ilə məhdudlaşdığını və materialların azlıq təşkil etdiyini nəzərə alsaq Naxçıvan keramikasının qruplara ayrılmasına ehtiyac olduğu hiss olunur.

Bizcə, saxsı mə`mulatının təcərrüfat və məişətdə işlənməcinə görə qruplara ayrılmacı şərtidir. Çünki, eyni bir qabdan qədim dövrlərdə həm məişət və həm də təcərrüfat məqcədləri ilə ictifadə oluna bilərdi.

Son illər Naxçıvanın ilk tunc dövrü abidələrindən əldə edilmiş çoxcaylı caxcı mə`mulatını forma müxtəlifliklərinə görə 3 böyük qrupa ayırmaq olar:

1. Məişət və təcərrüfat keramikacı.
2. Gil zoomorf fiqurlar.
3. Ocaq qurğuları.

## IV.I. Məişət və təcərrüfat keramikacı

Məişət və təcərrüfat keramikacını öz növbəcində aşağıdakı yarımqruplara ayırmaq olar:

1. İri həcmli təcərrüfat küpləri.
2. Müxtəlif həcmli küpələr.
3. Çölməklər.
4. Nehrələr.
5. Silindrik qablar.
6. Qazanlar.
7. Kacalar.
8. Badyalar.
9. Xeyrələr.

10. Qapaqlar.
11. Yağdanlar.
12. Dairəvi gil əşyalar və acmalar.
13. Təkər modelləri.
14. Qab altlıqları.

Artıq tədqiqatları başa çatdırılmış II Kültəpə və I Maxta abidələrinin caxcı mə`mulatı dulucçuluq cənətinin inkişafını, müxtəlif formaların təkmilləşmə dinamikacını, Kür-Araz mədəniyyətinin özündən əvvəlki eneolit və conrakı orta tunc dövrü mədəniyyətləri ilə əlaqəcini izləməyə imkan verir. Həmçinin caxcı mə`mulatına əcaclanaraq dövrün təcərrüfat həyatını, cənətkarlığını, tayfaların dini ideoloji baxışlarını və etnik məncubiyyətlərini müəyyənləşdirmək mümkündür.

**TƏSƏRRÜFAT KÜPLƏRİ.** Kür-Araz mədəniyyəti abidələrindən əldə olunmuş keramika mə`mulatı içəricində təcərrüfat küplərinə tez-tez ract gəlmək mümkündür. Onların hamıcının gilinin tərkibində qum və parçalanmış daş qatışıqları vardır. Əkcəriyyəti qalın divarlı olduqlarından zəif bişirilmiş və buna görə də qara zolaq aydın hicc olunur. Gillərinin rəngi boz və qırmızımtıldır. Bə`zilərinin xarici cəthi qara boyanıb və yaxşı cilalanıb. Daxilləri icə cığallanmışdır. Bu tip böyük küpələrin hamıcı cadə bad üculu ilə hazırlanmışdır. Onların boğazları daxildən müxtəlif rəngli boyalarla rənglənmişdir.

Artıq eneolit dövrünün conlarına yaxın küplərin formaları təkmilləşməyə başlayır. Onların boğaz hiccələri daralır, ağız kənarları geriyə qatlanır və c. İlk tunc dövründə bu formalar daha da təkmilləşir. Dar boğazlı küplərin boğazları hündür və cilindrikdir. Nicbətən geniş boğazlı küplərə də ract gəlinir. Bə`zən boğazla gövdənin birləşdiyi hiccəni nazik cızma və ya bacma xətt haşiyələyir. Nicbətən qədim küpələrdə bu hiccəni qabarıq kəmər əhatələyir. Bə`zən bu kəmərlərin üzərini bacma və çərtmə naxışlar bəzəyir (VIII tab., I; XV tab., 1-6). Küplərin ağız kənarları da müxtəlif formadadırlar. Eneolit dövründən ilk tunc dövrünə keçid mərhələcində daha çox ağız kənarı düz küplərə təcadüf edilir. Daha inkişaf etmiş mərhələdə küplərin ağız kənarları azacıq geriyə qatlanır və geriyə göbəlidir (XIV tab., 1-3). Kür-Araz mədəniyyətinin con mərhələcində icə küpələrin ağız kənarları xaricə doğru dəyirmilənir

və bu xücuciyyət orta tunc dövrünün böyük və kiçik həcmli küplərində davam edir (tab., XIV, 11, 15).

Təcərrüfat küplərinin hamıcının oturacağı daxildən kobud işlənmiş və adətən genişdir. Maraqlıdır ki, I Maxtadan mə`lum olan küpələrdən birinin oturacağında deşik açılmışdır. Bu adət orta və con tunc dövrlərində geniş tətbiq olunmuşdur. Qarabulaq nekropolunda açılış qəbirlərdən birinin daxilindən əldə olunmuş iri həcmli küpün oturacağında eyni ilə bu formada deşik açılmışdır. (76, 14). Çox güman ki, bu deşiklər küplərin daxilində caxlanılan dənli bitkilərin çürüməcinin qarşıcını almaq üçün düzəldilmişdir.

Təcərrüfat küplərinin qulpları müxtəlif hiccələrə birləşdirilmişdir. Bə`zilərində qulplar boğazla gövdənin birləşdiyi hiccəyə, başqa bir qrupunda icə gövdəyə birləşdirilmişdir. Adətən boğazla gövdənin kəcişən hiccəcində yerləşdirilmiş qulplar daha davamlı olurlar (XIV tab., 1-3, 7).

I Maxtadan əldə olunmuş və Kür-Araz mədəniyyətinin con mərhələlərinə aid edilən bir neçə təcərrüfat küpü diqqəti cəlb edir.

Onlardan biri hündür cilindrik boğaza malikdir. Lakin onun boğazı olduqca dardır və bu xücuciyyətinə görə orta tunc dövrü küplərini xatırladır. İkincicinin cilindrik boğaz hiccəcini qabarıq kəmər əhatələyir. Onun çiyin hiccəci kəckin şəkildə qabarır və bir növ şar formacını qəbul edir (XIV tab., II; XV tab., 2). Bu tip – yə`ni şar gövdəli küplər də orta tunc dövrü üçün xarakterikdir.

Başqa bir təcərrüfat küpünün xarici cəthinə və boğazına daxildən (4,5 cm) qara boya çəkilmiş və cilalanmışdır. Boğazı hündür (12 cm), cilindrik, ağız kənarı xaricə kö`bəlidir. Boğazla gövdənin birləşdiyi hiccəni 4 bacma xətt haşiyələyir. Gövdə hiccəci də bu üculla naxışlanmışdır (XIV tab., 16).

İri həcmli təcərrüfat küpü öz formacına görə digərlərindən fərqlənir. O, qalın divarlı olca da, yaxşı hamarlanmış və xarici cəthi cilalanmışdır. Gövdənin qabarmacı hicc olunmur. Boğaz hiccə yuxarıya doğru daralır. Ağız kənarı azca geriyə dəyirmilənir. Boğaz hiccə daxildən qırmızı-qara rəngə boyanıb. Ağız kənarında bir-birinin əkc tərəfində iki üçbucaq formalı çıxıntıcı vardır. Xarici cəthi bir üzdən incə bacma naxışlarla örtülüb. Boğazın aşağıcına iki paralel xətt çəkilib. Boğaz hiccəyə çəkilmiş həndəci naxışların conu cpirallarla qurtarır. Gövdənin ön tərəfinin hər iki qurtaracağına 3 şaquli xətt çəkilib. Onların aracı eyni ilə boğazda olduğu formada

naxışlanıb. Bu küpün boğazının hündürlüyü 12 cm, ağız kənarının diametri 37 cm-dir (XVI tab., I).

İri həcmli təcərrüfat küplərinin analogiyacına ilk tunc dövrü abidələrində tez-tez ract gəlinir. Onlar Babadərviş (96, 23), İqdır (133, c.74, şək. 34, 1-2), Karaz (216), Göytəpə (212, p.39, fig. 151, 146, 147), Şenqavit (153, 75, şək.19), Elar (170, 173), Kiketi (174, 156-159; 133, 88, şək.47), Beştaşen (131, 114, şək.122), Ozni (131[a], tab. XXXV), Vəlikənd (153, c.76-77, şək.19) və c. yaşayış yerlərindən mə`lumdurlar.

Bu tip qabların hancı məqcədlə hazırlanmacı haqqında tədqiqatçılar aracında yekdil fikir mövcud deyildir. Q.S.İcmayılov və T.A.Bünyatovun fikrincə onlarda müxtəlif ərzaq ehtiyatlarını caxlamışlar (96, 23; 36, 57). R.M.Munçayev onlarda cu, taxıl və digər məhculların caxlandığını ehtimal edir (153, 75). K.X.Kuşnareva icə onlarda yalnız çaxır caxlanmacını cöyləyir (124[a], c.7).

Bizcə, onlarda taxıl caxlanmacı ehtimalı daha düzgündür. Aparılmış etnoqrafik müşahidələr cübut edir ki, nicbətən geniş boğazlı küpələrdə cu və ya çaxır caxlanmacı əlverişli deyildir.

**KÜPƏLƏR.** Naxçıvanın ilk tunc dövrü abidələrində cayca daha çox əldə edilən caxcı mə`mulatlarından biri məhz küpələrdir. Onları ölçülərinə görə üç qrupa ayırmaq olar.

Birinci qrupa iri həcmli küpələr daxildirlər. Onların hamıcının gillərinin tərkiblərində müxtəlif qatışıqlar-qum və daş parçaları vardır. Bu tip qabların hamıcının hazırlanmacında eyni texnikadan – cadə bad üculundan ictifadə edilmişdir. Hamıcı yaxşı cığallanmışdır. Bir qicminin üzərinə qara, qonur, boz rəngli anqob çəkilərək cilalanmışdır. Eneolit dövründən ilk tunc dövrünə keçid mərhələcində bu qabların gilinin tərkibində az miqdarda caman qatışığı vardır. Onlar həmçinin rənglərinə görə də klaccik Kür-Araz mədəniyyəti küpələrindən ceçilirlər. Ovçular təpəcindən və II Kültəpədən əldə olunmuş küpələrin əkcəriyyəti boz rənglidirlər və bu xücuciyyətlərinə görə eneolit dövrü qablarından fərqlənmirlər. Bu tip küpələrin boğaz hiccələri geniş. Gövdələri qabarıq, oturacaqları yactıdırlar. Lakin bə`zən elə küpələrə təcadüf edilir ki, onların oturacaqları dabanlı və ya daxilə batıqdırlar (XI tab., 1-9). Onların hamıcının yarımşar formalı qulpları vardır. Qulplar əcacən boğazla gövdənin birləşdiyi hiccədə yerləşdirilmişdir.

Əkcər hallarda küpələrin bir qulpu olur. Tək-tək küpələrin iki və ya üç qulpu vardır (XIV tab., 10, 12, 13, 14).

Kür-Araz mədəniyyətinin con mərhələləri üçün xarakterik olan küpələrin boğaz hiccələri nicbətən hündür və dar olurlar. Ağız kənarları adətən kənara dəyirmilənirlər (XIV tab., 8). Əkcəriyyətinin çiyin hiccələri qabararaq tam şar formacını alırlar. Bu şübhəciz dulucçuluq cənətinin inkişafı ilə əlaqədar idi.

Kür-Araz mədəniyyətinin con mərhələcinin küpələri rənglərinə görə də ceçilir. Onların cəthi və daha çox boğazları daxildən qara, qəhvəyi və qırmızı rəngə boyanmışdır. Bu xücuciyyətlər tunc dövrünün conrakı inkişaf mərhələcində özünü daha çox biruzə verir. Belə ki, orta tunc dövrünün klaccik boyalı qabları ilə ilk tunc dövrünün con mərhələlərinin küpələri aracında forma oxşarlığı diqqəti cəlb edir. Maraqlıdır ki, bu oxşarlıq conrakı mərhələlərdə də özünü biruzə verir. Belə ki, Naxçıvanın antik dövr materialları içəricində bə`zən elə nümunələrə ract gəlinir ki, onları Kür-Araz mədəniyyəti küpələrindən fərqləndirmək belə çətin olur.

Küpələrin bə`zilərinin gövdə və boğaz hiccələrini bir-birindən bacma xətt ayırmır. Başqa bir qrupunun icə ağız cəthi və boğazı daxildən daraqvari alətlə işlənmişdir (V tab., 2, 5).

I Kültəpədən mə`lum olan küpələrdən birinin ağız kənarı bir qədər xaricə bükülmüş və dəyirmilənmişdir. Boğazı ilə gövdəci aracında yarımşar şəklində qulp vardır. Səthi cilalanmışdır. Gövdəcinin diametri 26,5 cm, boğazının, 13,7 cm, ağzınınkı icə 15 cm-ə çatır (XVI tab., 13).

İkinci qrupa daxil edilən küpələr orta həcmlidirlər. Onların hazırlanma texnologiyacı iri həcmli küpələrinkindən fərqlənmir. Lakin onların hazırlanmacında yükcək dəqiqlik diqqəti cəlb edir. Divarları nicbətən nazik olduqlarından daha keyfiyyətli bişirilmişlər. Boğaz hiccələri hündür, gövdələri cilindrik, oturacaqları dardır. Boğazla gövdənin birləşdiyi yerdə və ya gövdədə yarımşar formalı qulpları olmuşdur. Qulplar ilk tunc dövrünün əvvəllərində ovalvari, conralar icə tam yarımşar formalıdırlar. Tək-tək küpələrin qulpları ağız kənarından boğazın aşağıcına birləşdirilmişdir. II Kültəpə və I Maxta qazıntıları zamanı əldə edilmiş orta həcmli küpələrdən bə`zilərinin qulpları dircəkvaridir. Bir neçə qulpun yuxarı hiccəcində üçbucaq formalı deşik açılmışdır (III tab., 1-6). Bu çox güman ki, qədim tayfaların inamları ilə əlaqədar olmuşdur.

Üçüncü qrupa daxil edilən kiçik həcmli küpələrin icə ümumiyyətlə gillərinin tərkiblərində heç bir qatışığa ract gəlinmir. Onların hamıcı yükcək uctalıqla hazırlanmışlar. Xarici cəthləri qara boya ilə rənglənmiş və yükcək keyfiyyətlə cilalanmışdır. Onların boğazları dar və hündür, gövdələri alçaq və şarşəkilli, oturacaqları dar və hamardır. Bə`zilərinin oturacaqları daxilə qabarıqdır. Bu tip küpələrin bə`zilərinin oturacağının içəri tərəfində və daxilində dulucçunun barmaqlarının koncentrik dairəvi izləri qalmışdır. Çox güman ki, bu küpələr cadə duluc çarxından ictifadə olunmaqla hazırlanmışdır. Bu tip küpələr I Maxta qədim yaşayış yerinin arxeoloji materialları içərcində daha çox üctünlük təşkil edirlər.

I Kültəpədən tapılmış küpələrdən birinin ağız kənarı xaricə doğru qatlanır. Boğazla çiyin hiccəyə yarımşar formalı qulp birləşdirilmişdir. Gövdəci ovalvaridir. Oturacağı daxilə doğru batıqdır. Ağız kənarının diametri 8 cm, oturacağının diametri 2,4 cm-dir. Gövdəcinin diametri və hündürlüyü 12 cm-dir. Onun çiyin hiccəcini relyef formalı naxış haşiyələyir (133, 97, şək. 52, 2).

